# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Cənubi Qafqaz üçün "sülh çələngi"



4

# Tək hədəf sosial rifah, tək hədəf insan amili!



3

Prezident İlham Əliyev: "Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir"

SƏS
№ 139 (7307)
7 avqust 2025-ci il.
Qiyməti 60 qəpik

# Azərbaycan-ABŞ əməkdaşlığı: yeni geosiyasi reallıqlar

Prezident İlham Əliyev: "Yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq"



2

## Endirim kampaniyaları - real fürsət, yoxsa istehlakçının aldadılması?



11

## "Görüş regionun siyasi tarixində dönüş nöqtəsi ola bilər"



7

## Şəhid xanımlarımız!



5

## Xurşidbanu Natəvan: 273 yaşlı Şuşamızın 193 yaşlı qızı



10

## Ya səsin olmalıdır, ya da...



8

# Azərbaycan-ABŞ əməkdaşlığı: yeni geosiyasi reallıqlar



## Prezident İlham Əliyev: "Yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq"

Bu gün Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən qüdrətli ölkələrindən olan ABŞ münasibətlərinin möhkəmləndirilməsi xüsusi prioritet təşkil edir. Rəsmi Bakı ABŞ-la əməkdaşlığın inkişafına hər zaman xüsusi yer verir. Əlbəttə ki, beynəlxalq birliyin ən fəal üzvlərindən olan Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdərək, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Azərbaycan beynəlxalq aləmdə sülhsevər, demokratik prinsiplərin inkişafına xüsusi önəm verən, irimiqyaslı infrastruktur layihələrin reallaşdırılmasında zəngin təcrübəsi olan bir ölkə kimi tanınır. Müasir dünyamızda Azərbaycan-ABŞ münasibətləri də yüksələn xətt üzrə inkişaf edir. Siyasi və təhlükəsizlik, eləcə də enerji sahəsində də əməkdaşlıq sahəsində uğurlar əldə olunub. ABŞ-ın Azərbaycanla ikitərəfli əməkdaşlığa olan marağı yalnız ölkəmizin strateji-coğrafi mövqeyə malik olması və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliyə öz töhfəsini verməsi ilə də bağlıdır. ABŞ və Azərbaycan arasında münasibətlərin pozitiv keşmişi və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər mövcuddur. Ölkələr arasında münasibətlərin siyasi, iqtisadi, ticarət, təhlükəsizlik, enerji və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivləri var.

Prezident İlham Əliyev və Prezident Donald Tramp arasında qarşılıqlı anlaşma və əməkdaşlıq iki ölkə arasında strateji tərəfdaşlıq üçün güclü zəmin yaradır. Enerji təhlükəsizliyi, regional sabitlik, iqtisadi əməkdaşlıq və terrorizmə qarşı mübarizə sahələrində ortaq maraqlar liderlər səviyyəsində aparılan dialoqun səmərəliliyini və gələcəyə yönəlmiş mahiyyətini bir daha təsdiqləyir. Donald Tramp hələ birinci prezidentliyi dövründə Azərbaycanla dostluq və əməkdaşlığın möhkəmlənməsinə xüsusi diqqət yetirib. O dövrdə formalaşan qarşılıqlı etimad bu gün ikitərəfli əlaqələrin yeni mərhələyə keçidi üçün əsaslı zəmin rolunu oynayır. Xatırladaq ki, Prezident İlham Əliyev Donald Trampa Amerika Birləşmiş Ştatlarının 47-ci Prezidenti kimi fəaliyyətə başlaması münasibətilə ünvanladığı məktubunda onun gələcək fəaliyyətinin dünyada sülhün təşviqində, beynəlxalq təhlükəsizliyin gücləndirilməsində önəmli rol oynayacağına əminliyini ifadə edib.

Dövlətimizin başçısı Birləşmiş Ştatlarla əməkdaşlığın perspektivlərinə toxunaraq qeyd edib: "Biz həm ənənəvi, həm də yeni əməkdaşlıq sahələri üzrə Birləşmiş Ştatlar ilə fəal və səmərəli birgə işimizi, qarşılıqlı inam və etimada əsaslanan tərəfdaşlığımızı bundan sonra da qətiyyətlə davam etdirmək və Sizinlə bu istiqamətlərdə sıx işləmək niyyətindəyik. İnanıram ki, Sizin yeni prezidentliyiniz dövründə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənəcək və yeni məzmun kəsb edəcəkdir".

Azərbaycan Prezidenti onu da bildirib ki, biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik: "İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır".

Bildiyimiz kimi, Azərbaycan-ABŞ strateji əməkdaşlığı keyfiyyətcə yeni mərhələdə Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra Amerika Birləşmiş Ştatları ilə əlaqələr 1992-ci ildə yaradıldı. Hazırda, ABŞ-ın Azərbaycanda bir səfirliyi, Azərbaycanın isə ABŞ-da bir səfirliyi və bir konsulluğu fəaliyyət göstərir. Dövlətlərarası diplomatik əlaqələr Ulu Öndər Heydər Əliyev tərəfindən möhkəmləndi. 1997-ci il 29 iyul tarixində Prezident Heydər Əliyevin ABŞ-a rəsmi səfəri bu əlaqələrin möhkəmlənməsində əhəmiyyətə malikdir. Daha sonra 2003-cü il 23-27 fevral tarixlərində Ulu Öndərin ABŞ-a işgüzar səfəri əməkdaşlığın davamlığını əks etdirmiş oldu. Ulu Öndər Heydər Əliyevin ABŞ-a tarixi səfərləri nəinki bu iki ölkənin strateji əməkdaşlığının möhkəmləndirilməsində keyfiyyətcə yeni bir mərhələ, habelə, bu əməkdaşlığın fundamental əsaslarının bir daha sınaqdan çıxmasında vacib əhəmiyyət daşıyan hadisə oldu. Əməkdaşlıq əlaqələri Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətlərarası qarşılıqlı işgüzar görüşlər bu əlaqələrin davamlılığına söykənir.

### REGİONAL SABİTLİK VƏ DAYANIQLI ƏMƏKDAŞLIQ ÜÇÜN YENİ İMKANLAR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 6-da ABŞ-a səfəri yalnız Azərbaycan-Amerika ikitərəfli münasibətləri baxımından deyil, həm də regional sabitlik və qlobal təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət kəsb edir. Səfər Birləşmiş Ştatların Prezidenti Donald Trampın rəsmi dəvəti ilə gerçəkləşir və bu baxımdan tarixi xarakter daşıyır. Prezidentlər arasında yüksək səviyyəli danışıqlarda siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsi, enerji və nəqliyyat layihələri üzrə strateji tərəfdaşlığın möhkəmləndirilməsi, eyni zamanda, Cənubi Qafqazda sülh prosesinin irəlilədilməsi kimi məsələlərin müzakirə olunacağı gözlənilir. Səfər, həmçinin Azərbaycanın beynəlxalq nüfuzunun artması və regionda balanslı, eyni zamanda, proaktiv xarici siyasət kursunun davam etdirilməsi baxımından mühüm mərhələ kimi dəyərləndirilməlidir. Tərəflər arasında konkret razılaşmalar əldə ediləcəyi təqdirdə, bu, həm regional sabitlik və dayanıqlı əməkdaşlıq üçün yeni imkanların yaranmasına, həm də ABŞ-Azərbaycan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçməsinə səbəb ola bilər.

Səfərin strateji əhəmiyyətini müəyyən edən əsas məqamlardan biri də onun iki əsas istiqamət üzrə formalaşmasıdır: bir tərəfdən Azərbaycan və ABŞ arasında ikitərəfli siyasi, iqtisadi və təhlükəsizlik əlaqələrinin dərinləşdirilməsi, digər tərəfdən isə Azərbaycanla Ermənistan arasında davam edən sülh gündəliyinin müzakirəsi. Əlbəttə ki, Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri faydalı əməkdaşlığa əsaslanır. Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri ölkələrimiz arasındakı səmimi və sarsılmaz, qarşılıqlı maraqlar üzərində qurulan əlaqələrin tamamilə yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir.

### KEYFİYYƏTCƏ YENİ - STRATEJİ MÜTTƏFİQLİK

Heç şübhəsiz ki, Azərbaycan Prezidentinin ABŞ-a gerçəkləşən səfəri iki ölkə arasındakı əməkdaşlığın daha da möhkəmləndirilməsinə töhfə verəcəkdir. Son illərdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər təkcə ənənəvi diplomatik əməkdaşlıq çərçivəsində inkişaf etməklə kifayətlənmir, eyni zamanda, keyfiyyətcə yeni - strateji müttəfiqlik səviyyəsinə yüksəlməkdədir. Xüsusilə Donald Trampın ikinci prezidentliyi dövründə Vaşinqtonun Cənubi Qafqaz siyasətində Azərbaycanın rolu daha da ön plana çıxıb. Enerji təhlükəsizliyi, regional sabitlik və antiterror əməkdaşlığı kimi sahələrdə qarşılıqlı maraqların artması bu iki ölkə arasında münasibətlərin daha dərin və qarşılıqlı etimada əsaslanan bir platformaya keçməsini şərtləndirib. Hazırkı səfər də məhz bu yüksələn dinamikanın davamı və yeni strateji mərhələnin əsasını qoya biləcək mühüm siyasi addım kimi qiymətləndirilməlidir. Azərbaycan Prezidentinin çıxışlarının birində bildirdiyi kimi, "Qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-ABŞ tərəfdaşlığının inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylərimizi dövlətlərimizin maraqları və xalqlarımızın mənafeyi naminə bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik".

Azərbaycanla ABŞ arasında enerji sahəsində davam edən əməkdaşlığı da xüsusi olaraq qeyd etməliyik. 1994-cü ildə Xəzər hövzəsinin Azərbaycan sektorunda Azəri-Çıraq-Günəşli yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə "Əsrin müqaviləsi"ndə ABŞ şirkətləri yer almış, habelə həmin zamandan ABŞ tərəfi Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən əsas ixrac neft və qaz kəmərlərinin tikintisinə fəal dəstək olmuşdur. 2017-ci il 14 sentyabr tarixində Azərbaycan və onun beynəlxalq enerji tərəfdaşları arasında Azəri, Çıraq və Günəşli yatağının dərinsulu hissəsinin birgə işlənməsinin 2050-ci ilədək uzadılmasına dair yenilənmiş Hasilatın Pay Bölgüsü (HPB) sazişində də ABŞ-ın Şevron və Ekson şirkətləri yer almışdır. ABŞ, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsində də rol oynayıb.

### CƏNUBİ QAFQAZDA YENİ GEOSİYASİ REALLIQLAR

Prezident İlham Əliyevin Vaşinqton səfərinin ikinci mühüm istiqaməti Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin irəlilədilməsi ilə bağlıdır. Azərbaycan 2020-ci il Vətən müharibəsində əldə etdiyi Qələbə ilə Cənubi Qafqazda yeni geosiyasi reallıqlar formalaşdırıb və bu reallıqlar beynəlxalq hüququn prinsiplərinə əsaslanaraq sülhün qurulması üçün yeni əsaslar yaradır. Azərbaycanın sülh müqaviləsi ilə bağlı irəli sürdüyü əsas şərtlər beynəlxalq hüquqa və dövlətlərin suverenliyi prinsipinə əsaslanır. Azərbaycan sülh prosesinin təşəbbüskarıdır. Azərbaycan tərəfi iki dövlət arasında münasibətlərin normallaşmasına dair Ermənistan tərəfinə baza prinsiplərini təqdim etdikdən sonra, Ermənistan tərəfi sülh danışıqları ilə bağlı Minsk Qrupunun həmsədrlərinə müraciət edib. Dövlət başçımızın bildirdiyi kimi, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində ölkəmiz tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində lazımi nəticə əldə olunmayıb. İki dövlət arasında münasibətlərin normallaşması üçün beş baza prinsipləri əks olunub. Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

### "ERMƏNİSTAN KONSTİTUSİYASINA DƏYİŞİKLİK VƏ ATƏT-İN MİNSK QRUPUNUN BURAXILMASI, - HƏLL EDİLƏN KİMİ SÜLH MÜQAVİLƏSİ İMZALANA BİLƏR"

İki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər. "Bu iki məsələ, - Ermənistan konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılması, - həll edilən kimi sülh müqaviləsi imzalana bilər. Bəli, mətn paraflana bilər və Azərbaycan tərəfi artıq Əbu-Dabidə bu təkliflə çıxış edib. Lakin bildiyiniz kimi, paraflanma heç də imzalanma demək deyil. Yəni, biri var ki, tərəflər arasında şifahi razılıq əldə olunur, biri də var ki, tərəflər sənədin hər səhifəsinin sonunda öz imzalarını qoyaraq onu paraflayır. Məncə, biz sülh müqaviləsinin imzalanmasına çox yaxınıq. Hesab edirəm ki, bu proses geridönməz xarakter alıb. Bunun hər hansı bir yenidən baxılması, yenidən baş verməsi mümkün deyil. Biz heç nəyi yenidən müzakirə etməyəcəyik. Ancaq Ermənistan yenidən müzakirəyə başlamağa çalışırsa, o deməkdir ki, onlar sülh istəmirlər. Deməli, o ərazi iddiası qalır. Ona görə də biz düzgün istiqamətdəyik. Onlar öz ev tapşırıqlarını yerinə yetirməlidirlər", - deyə Azərbaycan Prezidenti bildirib. Dövlət başçımızın sözlərinə görə, bu baş verdiyi halda biz sülh müqaviləsini imzalaya bilərik: "Bu da region üçün çox böyük yenilik, çox böyük dəyişiklik olacaq və biz artıq bu haqda danışdıq. Cənubi Qafqaz sabitlik məkanı olacaq".

Zəngəzur dəhlizinin açılması da Azərbaycanın beynəlxalq nəqliyyat və iqtisadi əlaqələrdə bərabərhüquqlu iştirakını təmin edən fundamental hüquqdur. Bu dəhlizin reallaşması həm region dövlətləri, həm də daha geniş geoiqtisadi məkan üçün yeni tranzit imkanları və uzunmüddətli sabitlik perspektivləri yaradır. ABŞ-da aparılacaq müzakirələrin bu məsələlərin hüquqi və texniki aspektlərini əhatə etməsi gözlənilir.

Beləliklə, Azərbaycanın sülh strategiyası qalib tərəfin konstruktiv təşəbbüslərinə əsaslanır və regionda uzunmüddətli təhlükəsizlik, inkişaf və əməkdaşlıq üçün real zəmin formalaşdırır. ABŞ səfəri çərçivəsində keçiriləcək danışıqlar yalnız Azərbaycan-Ermənistan münasibətləri üçün deyil, bütövlükdə Cənubi Qafqaz regionu və beynəlxalq diplomatiya üçün model xarakteri daşıyacaq. Bu, sülhün zorla deyil, ədalətli hüquqi prinsiplərlə, beynəlxalq legitimlik əsasında qurulmasının mümkünlüyünü göstərən nümunə olacaq. Dövlət başçısının bildirdiyi kimi, "Yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq".

**_Zümrüd BAYRAMOVA_**

# Tək hədəf sosial rifah, tək hədəf insan amili!

## Prezident İlham Əliyev: "Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir"



Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prioritet sahələrin inkişafının təmin edilməsinə hesablanan islahatlar qlobal miqyasda meydana çıxan yeni çağırışları, cəmiyyətin sosial sifarişlərini əhatə edir. Ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını yüksək səviyyədə təmin edib və bu, davam etdirilməkdədir. Uğurlu daxili və xarici siyasət sayəsində dövlətçilik ənənələri möhkəmlənib və iqtisadiyyat dinamik inkişaf edib. Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan tarixi nailiyyətlər qazanıb, dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların rifahı yaxşılaşıb. Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan tarixi nailiyyətlər qazanıb, dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların rifahı yaxşılaşıb.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin mərkəzində ölkə vətəndaşı, onun rifahının təminatı prinsipi dayanır və bunun nəticəsi olaraq ötən 21 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Azərbaycan vətəndaşının maraqlarının, həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsi əsas hədəflərdən biri olaraq qarşıya qoyulmuşdur. Dövlətimizin başçısının ölkəyə rəhbərliyi dövründə hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir. 23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. 2025-ci ildən başlayaraq minimum əməkhaqqı 345 manatdan 400 manata, minimum pensiya isə 280 manatdan 320 manata qaldırılıb. Artım təxminən 14-15 faizdir.

### SOSİAL ƏDALƏT VƏ HUMANİZM PRİNSİPLƏRİ

Bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir.

"Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun" - deyən Prezident bildirib ki, müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün: "Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir".

Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onların həyat şəraitinin yaxşılaşmasına, ictimai hüquqlarının bərpa olunmasına şərait yaradılıb. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Bütün məsələlərdə, məşğulluq, məişət problemləri, ondan sonra istənilən problem ola bilər insanın həyatında - bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur". Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiqləyir. Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində kifayət qədər tədbirlər reallaşıb.

### "MÜHARİBƏNİ ŞƏHİDLƏRİMİZİN CANI-QANI BAHASINA, HƏRBÇİLƏRİMİZİN RƏŞADƏTİ HESABINA, DÖVLƏTİMİZİN SİYASƏTİ HESABINA QAZANMIŞIQ"

2020-ci il sentyabrın 27-də isə Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uğurlu hərbi əməliyyatlarla cəmi 44 gün ərzində möhtəşəm tarixi Zəfər əldə etdi. Beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad olundu. Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də aparılır. Prezident İlham Əliyevin tapşırığı ilə bu proqram daim genişlənir, postmüharibə dövründə isə 5 dəfə genişlənib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin ölkə Prezidentinin daim diqqət mərkəzində olduğunu və onların yüksək qayğı ilə əhatə olunduqlarını bir daha göstərir. "Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3493 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncam həmin maliyyələşdirmə müddətinin uzadılmasını nəzərdə tutur. Bu məqsədlə əvvəlki Sərəncamın 1-ci hissəsindəki "2022-ci və 2023-cü" sözləri "2022-2025-ci" sözləri ilə əvəz edilib.

Müzəffər Ali Baş Komandan İlham Əliyev həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərir. Onların sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar reallaşır. 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən, şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi icra olunur. "Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir" - deyə Prezident bildirib.

44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların məşğulluğuna dəstək işləri də aparılır.

Cənab Prezident çıxışlarının birində vurğuladığı kimi, "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq". Bu gün vətən torpaqlarının azad olunmasında sağlamlığını itirənlər və şəhid olanların ailələri dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunub. Azərbaycan dövləti və xalqı üçün əlbəttə ki, hər bir hərbçi əzizdir və dəyərlidir.

### SOSİAL DƏSTƏK PAKETİ 131 MİN ŞƏXSİ ƏHATƏ EDİB

Postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 131 min şəxsə 378 min xidmət göstərilib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24,7 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 6,8 min mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567 avtomobil təqdim edilib. 11 min şəxsə 75 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Bütün bunlarla yanaşı, müharibə ilə əlaqədar əlilliyi olan 2291 şəxs 68 min reabilitasiya vasitəsi, o cümlədən 491 şəxs 608 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 26 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 12,4 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Ümumilikdə, postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 131 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 378 min xidmət göstərilib.

Təbii ki, bu işlərin də müəllifi, həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevdir. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasəti sosialyönümlüdür. Bunun mərkəzində Azərbaycan vətəndaşı dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Cənubi Qafqaz üçün "sülh çələngi"

*Trampın Azərbaycan və Ermənistan liderləri ilə görüşü barədə kim və nə yazır?*

Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına mane olan bütün bəhanələr neytrallaşdırılıb, İrəvanın manipulyativ hərəkətlərinə son qoyulub, şərtləri və iddiaları təsirsiz hala salınıb. 44 günlük müharibədən sonra Azərbaycanın qarşı tərəfə maraqlarını müəyyən çərçivədə imkan yaratması, hərbi əsirlərin dəyişdirilməsi, demarkasiya və demilitasiya prosesinin başladılması İrəvana yeni fürsətlər qazandırdı. Daha doğrusu iki ölkə arasında etimad mühitinin yaranmasının mümkünlüyünü ortaya çıxardı. Belə bir durumda Rusiyanın, Avropa İttifaqının, ABŞ-ın və digər regional və qeyri-regional ölkələrin artıq imzalanmaya hazır vəziyyətə gətirilmiş sülh müqaviləsi ətrafında, necə deyərlər, dövrə cızması yenə də yaxşı bir şey vəd etmir. Yenə iri dövlətlər öz maraqları barədə düşünürlər.



## Vaşinqtondan növbəti cəhd

"Azərbaycan və Ermənistan liderləri İlham Əliyev və Nikol Paşinyan bu həftə prezident Donald Trampla görüşmək üçün Vaşinqtona səfər edəcəklər. Görüş zamanı İrəvan və Bakı arasında sülh müqaviləsi bağlamaq niyyəti haqqında memorandum imzalana bilər. Yüksək rütbəli diplomatik mənbənin verdiyi məlumata görə, İlham Əliyev və Nikol Paşinyanın ABŞ-a hər iki paytaxtda sakit saxlanılan, lakin artıq Vaşinqtonda müzakirə olunan gözlənilməz səfərlərinə hazırlığı təsdiqləyib. Hazırlanan sənəd sülh müqaviləsi deyil, onun Ağ Ev-



də imzalanması faktının özü Donald Trampa bir daha sülhməramlı kimi görünməyə imkan verəcək - bu dəfə Cənubi Qafqazda. Moskva ilə münasibətlərdə böhran yaşayan İrəvan və Bakı ABŞ-ı regionun əsas kuratoru kimi tanımağa hazır olduqlarını nümayiş etdirirlər. Cümə günü, avqustun 8-də baş tutması gözlənilən Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtona gözlənilməz səfərləri məxfilikdədir. Nə Bakıda, nə də İrəvanda heç bir rəsmi açıqlama verilməyib - onlar sosial şəbəkələrdə yayılan məlumatları nə təsdiq, nə də təkzib edirlər". Bu barədə xarici mediada məqalə dərc edilib. Mənbənin sahibi isə, adı əvvəllər regional mediada yer almayan jurnalist Aleks Raufoğludur.

Yüksək rütbəli diplomatik mənbənin verdiyi məlumata görə, Ağ Evdə Tramp, Əliyev və Paşinyan arasında üçtərəfli görüşə hazırlığı təsdiqləyib. Vaşinqtonda isə ABŞ prezidentinin Respublikaçılar Partiyasındakı müttəfiqləri artıq Ağ Ev rəhbərinin yeni diplomatik qələbəsini gözləyərək qarşıdan gələn görüş haqqında danışırlar. "Trampın səyləri sayəsində Azərbaycan və Ermənistan arasında sülh sazişi bağlanmaq ərəfəsindədir", - Montanadan senator Stiv Daines deyib. Oxşar bəyanatla Cənubi Karolina Nümayəndələr Palatasının üzvü Co Vilson da "Azərbaycanla Ermənistan arasında sülhün tezliklə bağlanacağını" bildirib.

Middle East Eye nəşrinin qeyd etdiyi kimi, "Ermənistan və Azərbaycan Trampın vasitəçiliyi ilə sülh memorandumu imzalayacaq". Eyni zamanda, nəşr aydınlaşdırır ki, bu, sülh müqaviləsi deyil, tərəflərin sülh bağlamaq üçün siyasi iradəsini nümayiş etdirən "niyyət məktubu"dur.

Bundan əvvəl Azərbaycan və Ermənistan liderləri 30 ildən artıq davam edən qanlı münaqişəni vərəqləməyə hazır olduqlarını dəfələrlə təsdiqləyiblər və hətta sülh sazişinin bütün 17 bəndi üzrə razılığa gəliblər. Lakin Azərbaycan tərəfinin Ermənistan Konstitusiyasına dəyişiklik edilməsi ilə bağlı əsas tələbi yerinə yetirilmədiyi üçün heç vaxt imzalanmayıb ki, bu da hazırkı formada, Bakının fikrincə, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları üçün zəmin yaradır.

Baxmayaraq ki, İlham Əliyev və Nikol Paşinyanın Vaşinqtona səfəri zamanı çoxdan məlum mövqelərini təsdiqləmək kifayətdir, Amerika tərəfi bunu prezident Trampın səyləri ilə əldə edilmiş irəliləyiş kimi təqdim etməkdə qərarlıdır. Eyni zamanda, Vaşinqton, görünür, deklarativ niyyət memorandumu ilə qanuni qüvvəyə malik sülh müqaviləsi arasında çox da fərq qoymur. Ağ Evin prezident Trampdan yeni diplomatik uğurlar tələbini Ağ Evin mətbuat katibi Caroline Levitt də təsdiqləyib və ABŞ-ın 47-ci prezidentini "əsas sülhməramlı" adlandıraraq, onun Nobel Sülh Mükafatına layiq görülməsini hərfi mənada tələb edib.

"Prezident Tailand və Kamboca, İsrail və İran, Ruanda ilə Konqo Demokratik Respublikası, Hindistan və Pakistan, Serbiya və Kosovo, Misir və Efiopiya arasında münaqişələrə son qoyub. Bu o deməkdir ki, prezident Tramp ayda orta hesabla bir sülh sazişi və ya atəşkəs imzalayıb", - xanım Levitt hesablayıb. O, Azərbaycan və Ermənistanın adını çəkməyib, amma bunu əvvəllər Donald Tramp özü edib. NATO-nun baş katibi Mark Rutteni Ağ Evin Oval kabinetində qəbul edən prezident Tramp ona "Ermənistan və Azərbaycan arasında münaqişənin sona yaxınlaşdığı görünür" deyib. Hər iki paytaxtdakı məlumatlı mənbələrinə görə, ABŞ Bakı ilə İrəvan arasında sülh prosesində hələlik rəsmi rol oynamır, lakin onun orada potensial görünməsi zaman və təşəbbüs məsələsidir. Qərb mediası və diplomatik kanallar, o cümlədən ABŞ-ın Türkiyədəki səfiri Tom Barak getdikcə ABŞ-ın hazırkı administrasiyasının Cənubi Qafqaza marağının artmasına işarə edir.

Bu fonda Azərbaycan prezidenti İlham Əliyev III Şuşa Media Forumunda çıxışı zamanı prezident Trampa sərt hörmət jesti edib və ABŞ prezidenti buna dərhal cavab verib. "O, ABŞ-ın yeganə prezidentidir ki, müharibələrə başlamayıb. Və aydındır ki, müharibələrə son qoyan da odur. Daha qlobal problemlərə baxmayaraq, o, Cənubi Qafqazı diqqət mərkəzində saxlayır. Biz ona Azərbaycana və Ermənistana kömək etmək istəyinə görə minnətdarıq. Ümid edirik ki, o, hər şeyi sona qədər görəcək", - İlham Əliyev deyib. Prezident Əliyevin ona həsr olunmuş bəyanatını yenidən dərc etməklə Donald Tramp ona əks siqnal göndərib.

Digər məsələlərlə yanaşı, Bakı ABŞ-ın regionda nəqliyyat kommunikasiyaları probleminin həllinə kömək edəcəyinə ümid edir. Demək olar ki, beş il əvvəl, 2020-ci il noyabrın 9-da, ikinci Qarabağ müharibəsindən sonra Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyan tərəfindən üçtərəfli bəyanat imzalanıb. Bu bəyanatda Rusiya Zəngəzur dəhlizi də daxil olmaqla kommunikasiyaların bloklanmasına görə öz məsuliyyətini qeyd edib. Lakin sazişin doqquzuncu bəndi heç vaxt yerinə yetirilməyib. İndi üfüqdə yeni variant peyda oldu - ABŞ-ın nüfuzlu özəl şirkətlərindən biri Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsində qarant kimi çıxış etmək, üstəlik, 100 il müddətinə uzunmüddətli icarə imkanlarını nəzərdən keçirmək ambisiyalarını nümayiş etdirdi. Yeni nəqliyyat dəhlizinin yaradılması ideyası beləcə ortaya çıxıb - uzunmüddətli perspektivdə "yeni reallıq" yarada bilər", - deyə davam edir. Onun sözlərinə görə, bir çox amillər və bir sıra regional oyunçuların, o cümlədən İranın müqavimətinə görə bu ideyanı həyata keçirmək asan olmayacaq, bu, ən azı iki şey deməkdir. Birincisi, Vaşinqton Cənubi Qafqaza ciddi və uzun müddətə gəlməkdə maraqlıdır. İkincisi, ABŞ-ın regional logistika proseslərində institusional iştiraka hazır olması. Beləliklə, Moskvanın həm İrəvan, həm də Bakı ilə münasibətlərinin çətin mərhələsindən istifadə etməyə hazır olan Vaşinqton Cənubi Qafqazda yeni moderator olmağa cəhd edə bilər.

## "Milli faciə"nin erməni reportajı

Erməni mətbuatı xəbərə özünəməxsusu şəkildə yanaşır və şərh verir. Qeyd edilir ki, əgər Nikol Paşinyan həqiqətən də bu anti-erməni addımı atmağa qərar verərsə, biz buna ümumxalq etirazı ilə cavab verməyə borcluyuq. Bazar ertəsi səhər Ermənistan və xarici KİV Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan prezidenti İlham Əliyevin cümə günü Vaşinqtonda mümkün görüşü barədə məlumat yayıb. Qeyri-rəsmi məlumata görə, görüş ABŞ prezidenti Donald Trampın vasitəçiliyi ilə Ağ Evdə keçiriləcək və sülh sazişinin imzalanması ilə yekunlaşacaq.

Ermənistan hökumətinin mətbuat xidməti artıq bu şayiələri "nə təsdiq edə, nə də təkzib edə bilməyəcəyini" bəyan etməyə tələsərək, "səfər olacağı təqdirdə" rəsmi açıqlama verəcəyini vəd edib. Lakin bu cür ritorika çoxdan mövcud hakimiyyətin imza üslubu olub: tənqidi məlumatları öz adamlarından son ana qədər gizlətmək, onları vaxtında reaksiya vermək imkanından məhrum etmək.

Məlumat təsdiqlənərsə, o zaman cümə günü Tramp əvvəlcə Paşinyanı, daha sonra Əliyevi qəbul edəcək, bundan sonra üç liderin birgə bəyanatı olacaq. Bu barədə jurnalist Aleks Raufoğlu sosial şəbəkələrdə məlumat verib. Əldə etdiyimiz məlumata görə, o, ABŞ-da yaşayır və bu, onun açıqlamasını dinləməyə dəyər xəbərlər edir. Bununla belə, gəlin əvvəlcə sadə bir suala cavab verək - Trampa bu sülh niyə bu qədər lazımdır? Aydındır ki, Vaşinqtonda mümkün tarixi görüş ABŞ-ın altruist təşəbbüsü deyil. ABŞ-ın respublikaçı senatoru Stiv Daines "The Wall Street Journal" üçün yazdığı məqalədə mümkün razılaşmanı birbaşa Tramp administrasiyası üçün "görkəmli nailiyyət" adlandırıb.

Onun sözlərinə görə, Tramp regionda və onun hüdudlarından kənarda artımı və sabitliyi təşviq edir. Daines əlavə edib ki, regionda və dünyada sülh və sabitlik naminə Ermənistan və Azərbaycan liderləri dərhal onun imzalanmasını başa çatdırmalıdırlar. Gördüyümüz kimi, Trampın dünyanın baş sülhməramlısı kimi təqdimatı üçün fəal hazırlıq gedir. Nə üçün? Nəhayət ona Nobel Sülh Mükafatını vermək üçün! Tramp buna təşnədir. Və buna görə də onun hardasa və hansısa yolla sıçrayışa ehtiyacı var. Axı, reallıqda ABŞ prezidenti cari xarici siyasət situasiyası ilə üzləşib. Rusiya, Çin və Hindistan açıq şəkildə onun təhdid və sanksiyalarına məhəl qoymurlar. Hindistan və Çin Rusiya neftini almağa davam edir və Pekin də Ukraynaya qarşı müharibədə Kremlə texnoloji yardım edir.

Dünya gücləri ilə qarşıdurmada aşkar zəiflik fonunda Tramp amerikalı seçicilərə şəxsi uğur kimi satıla biləcək xarici siyasət "qələbəsi" axtarır. Bölgəmiz isə onun getdikcə şoumeni xatırladan hazırkı ABŞ prezidentini təbliğ etmək üçün əlverişli platformaya çevrilib. Ermənistan mediası qeyd edir ki, Tramp əlbəttə ki, ermənilərin hisslərinə əhəmiyyət vermir.

Erməni mediası yazır, "amma böyük siyasət dünyası həmişə qəddar olub. Aydındır ki, indiki şəraitdə belə bir sənədin imzalanması təkcə siyasi səhv olmayacaq - bu, Ermənistanın milli maraqlarına xəyanət olacaq. Bakı və Vaşinqtonun ultimatumları ilə dəstəklənən istənilən "sülh sənədi" xalqımızın hüquqları uğrunda mübarizədən imtinadır. Bu gün bizə deyirlər ki, Paşinyanın səfəri "təsdiq edilməyib". Amma sabah biz liderləri bağlı qapılar arxasında kapitulyasiyaya imza atmış bir ölkədə oyana bilərik. Və hələ - hər şeyi düzəltmək üçün hələ də şans var. Əgər Nikol Paşinyan həqiqətən də bu addımı atmağa qərar verərsə, biz ona ümumxalq etirazı ilə cavab verməyə borcluyuq. Biz bunu açıq şəkildə bildirməliyik: heç bir liderin xalqın xəbəri olmadan Ermənistanın gələcəyini müəyyən edən müqavilələr imzalamağa haqqı yoxdur. Tramp xarici siyasət oyununda bizdən alver vasitəsi kimi istifadə etmək istəyir. Amma erməni xalqının "yox" deməyə haqqı var".

## İrandan səslər

İranın ali dini liderinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti yenə bəzi regional və qeyri-regional dövlətlərə "Zəngəzur dəhlizi" məsələsinin dəfələrlə gündəmə gəlməsi ilə bağlı xəbərdarlıq edib. "Bir daha öz öhdəliklərini bəyan edən, lakin öz və regional maraqlarına məhəl qoymayan bəzi hökumətlər Zəngəzur dəhlizi məsələsini gündəmə gətirib və Cənubi Qafqazda qeyri-qanuni məqsədlərini həyata keçirmək



üçün mümkün olan hər şeyi edirlər. Xatırladıram ki, regionda və ya onun hüdudlarından kənarda əvvəlki uğursuz təcrübəni təkrarlamağa çalışan istənilən hökumət İranın sərt reaksiyası ilə üzləşəcək", - o, X-də yazıb.

**V.VƏLİYEV**

# Şəhid xanımlarımız!

***Azərbaycan qadını tarix boyu gözəl örnək olub. Bunu öz yaddaşında qoruyub-saxlayan tarixi salnamələr deyir. Ağıllı, cəsur sələflərimiz ən çətin məqamlarda belə, ayıq-sayıqlığı, çevikliyi və düzgün qərar qəbul etmək bacarığı ilə hamını heyrətləndiriblər. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi və millətinə, torpağına olan hədsiz məhəbbət və gözəlliyi ilə tanınmışdır".***



Tariximizin ayrı-ayrı dövrlərində yaşayıb fəaliyyət göstərmiş qadınlar müdrikliyi, işgüzarlığı ilə keçmişimizə parlaq səhifələr yazıblar. Ölkəmizin ictimai-siyasi və mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik olduğunu əməllərilə təsdiqləyib. "Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir" - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Milli varlığımızın ifadəsi olaraq, əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub-yaşadılması, bilavasitə onun adıyla bağlıdır. Bütün sahələrdə əməyi olan Azərbaycan xanımı dövlətin inkişafında, dövlətçilik ənənələrinin möhkəmlənməsində müstəsna rola malikdir. Qətibə xanım, Sara xatun, Məhinbanu, Xeyransa bəyim, Tuti Bikə və başqaları Azərbaycan qadınının nümunəsidir. Azərbaycan qadınları Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanaraq, ölkəmizin ictimai-siyasi həyatında daha yaxından iştirak etməyə başlamışlar.

## MÜBARİZLİYİ İLƏ DASTAN YARADANLAR

Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə malik görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi, müasir Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər.

Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik və insanpərvərlik nümunəsi olan qadınlar düşmənlə üz-üzə dayanaraq vətənin çətin zamanında əsgər paltarı geyinərək öz əsgər qardaşlarının yanında olmağı da bacarırlar. "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf, şan-şöhrətdir. Qadın ucalıq, ülvilik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir", - deyirdi Ulu Öndər Heydər Əliyev. Azərbaycan qadınının tariximizə adını yazdıran əməli, mübariz ruhu, bacarığıdır. Ötən əsrin 90-cı illərində ölkəmizdə baş verən olaylar nəticəsində nə qədər ismətli Azərbaycan qadınının böyüklüyünü gördük. Birinci və İkinci Qarabağ müharibəsində biz bunun bir daha şahidinə çevrildik.

## ÜÇ MİN ÜZÜYÜN TƏK QAŞI

Bu gün şəhid qadınlarımızın maraqlı, keşməkeşli həyat yolundan danışacağıq. 3 min şəhid qardaşın bir şəhid bacısı Arəstə Kərim qızı Baxışova. Bir şairin nəzmə çəkdiyi misralar yada düşür.

Üç min çiçək içrə yeganə gülsən,
Arzularla dolu ölməz könülsən.
Düz üç min qardaşa tək bacısan sən,
Düz üç min qardaşa baş tacısan sən.
Düz üç min üzüyün tək qaşı sənsən,
Ürəklərdə sevginin nəqqaşı sənsən.
Uyu torpağında ahəstə, bacım,
Ey igid, qəhrəman Arəstə bacım!..

Hər kəsin ocağında boy atan bir xanım kimi sevildi. Sanki, dünyamıza sülh gətirilməsində bir göyərçin kimi doğulmuşdu. Qanad açıb uçduğu yerlərdə sülh sorağının gətirəcəyinə əmin idi. Vətənim dardadırsa, şəhid olmağa hazıram, - dedi. Dağ döşündə bitəcək bənövşələr, lalələr Arəstə kimi şəhidlərimizin torpağa tökülmüş qanı ilə boy atacaq və yetişən hər bir güldə, çiçəkdə onların ətirləri duyulacaq. Bu hər kəsə güc verəcək, bu vətən eşqi gücüdür ki, axacaqdır damarlardan. Bir ailənin övladı, bir millətin övladı oldu. Böyükdən kiçiyə hamı Arəstəni tanıyır. Axı necə də tanımasın 3 min qardaşa bir bacı olanı? Elimizin mərd qızını.

Qarabağda al lalələr bitəndə,
Zirvələri göy dumanda itəndə,
Ətəyində yaşıl yarpaq əsəndə,
Mənzərələr şən nəğmələr ötəndə,
Sorağın gələcək ellərdən sənin.

Azərbaycan Silahlı Qüvvələrinin çavuşu və hərbi feldşeri, Vətən müharibəsinin şəhidi Arəstə Baxışova. Həyatın ilk zərbəsini kiçik yaşlarında alır. Bəlkə, elə həyat onun mübariz, daha mətin böyüməsi üçün elə ilk günlərdə imtahana çəkir.

Arəstə Baxışova 1995-2004-cü illərdə Biləcəri qəsəbəsində yerləşən Şuşa şəhər 3 nömrəli tam orta məktəbdə təhsil alır. 2004-2008-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Kollecində "İngilis dili" üzrə təhsil alıb. O, 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında çalışıb. 2019-cu il iyulun 12-dən isə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində operator vəzifəsində xidmət edirdi.



Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərib. Arəstə Baxışova oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

## "MƏN İŞƏ GEDİRƏM, ŞƏNBƏ GÜNÜ GERİ QAYIDACAĞAM"

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Arəstə Baxışova ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi. Arəstə Baxışova ölümündən sonra 2021-ci il mayın 12-də Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ingilis tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan "Florence Nightingale" medalı ilə təltif edildi. Arəstə Baxışovanın Mərdan adında oğlu və Zəhra adında övladları var. Bu gün onlar bizə ondan qalan yadigarlardır.

Bu gün onlar belə bir ananın övladları olduqları üçün qürurlanırlar. Oğlu Mərdan Məmmədli anamı çox sevirdim, deyir: "O, bizim qayğımıza qalırdı, ana sevgisi verirdi. Anamın şəhadəti xəbərini qürurla qarşıladıq. Şəhidlər ölmür, onlar hər zaman bizim qəlbimizdə yaşayacaq". Müharibəyə gedəndə övladlarına "Mən işə gedirəm, şənbə günü geri qayıdacağam", - deyib yola düşür. Bu son görüş, son vida olur. Ana və övladın son görüşü. Dəhşətli olsa da övladların yaşının az olmasına baxmayaraq, vətən yolunda şəhid olmağın nə qədər böyük şərəf olduğunu yaxşı anlayırlar. Anlayırlar ki, şəhidlər ölmür. Bu torpaq var olduqca onlar da yaşayacaq. Onların qanı ilə suvarılıb, bu torpaq. Milyonların sevgisini qazanan yeganə xanım şəhid Arəstə Baxışovanın gənc heykəltaraş Müstəqil Balayev büstünü hazırlayıb.

## "MƏN QƏLƏBƏNİN SONUNA QƏDƏR BURADAYAM"

1960-ci il noyabrın 20-də Bakı şəhərində anadan olan Gültəkin Əsgərova 1985-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş və əmək fəaliyyətinə 8 №-li təcili yardım stansiyasında başlamışdı. 1991-ci ildən Uroloji kliniki xəstəxanada işləmişdir. Qarabağ müharibəsi başladığı zaman, öz körpəsini anasına əmanət edərək, cəbhəyə erməni gülləsindən yaralanan əsgərlərə yardım etməyə yola düşür. Çətin illər idi. 1992-ci il aprelin 4-də könüllü cəbhəyə yollanıb, Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərir. Şuşa şəhərinin həbsxanasında olanların da qapısının açıb azad olunmasında onun xidməti də olub. Həbsxananın qapısı açılmasaydı, orada olanlar əsir götürüləcəkdi.

1992-ci il mayın 8-də Şuşanın işğalından bir gün sonra Şuşanı sonuncu tərk edənlərdən biri olan Gültəkin anasına göndərdiyi məktubda belə yazırdı: "Ana, salam. Mən sağ və salamatam, hər şey normaldır. Bizə yaxşı yemək verirlər. Mən qələbənin sonuna qədər buradayam. Şuşa alınana qədər! Bəlkə də indi alınmadı."



Şuşanın işğalından sonra, Gültəkin Əsgərova Laçının, daha sonra isə Qubadlının müdafiəsində iştirak edir.

O, 1992-ci il mayın 14-də Ağdam istiqamətində gedən döyüşlərə yola düşür. Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi yenidən xidmətə başlayır. Aranzəmin yüksəkliyinin ətəyində onun tibbi xidməti üçün yer ayrılır. Buraya yaralıları hərbçilər gətirməliydi ki, o da əsgərləri müalicə etsin. Lakin atəş səslərinin gücləndiyini eşidir. Burada dayana bilməyib, Aranzəmin yüksəkliyinə qalxır. Aranzəmin yüksəkliyi uğurunda gedən döyüşdə 1992-ci il 19 iyul tarixində şəhid olub və Bakıda Şəhidlər Xiyabanında dəfn edilib. Əminə adlı qızı yadigar qaldı. Bir ananın övladı. Bu gün Gültəkinin ruhu şaddır. Göylərdə pərvazlanan ruhu azadlığı qovuşmuş torpaqlarımızın üzərində rahat nəfəs alır. Şuşamızın azadlığına tamaşa edir. İnləyən insanların ahnaləsini görmüşdü. Bu dəhşətləri yaşamış şəhid ruhu bu gün aramızdadır. Yolumuzda bizə yolçudur. Bu gün onun xatirəsi bizimlə bərabər yaşayır. Gültəkin Əsgərovanın oxuduğu 200 saylı orta məktəbə onun adı verilmiş və büstü qoyulmuşdur. Hər gün yüzlərlə məktəbli onun adını anır və büstü qarşısında bir dəqiqəlik sükut edərək, ayaq saxlayırlar. Vətənin qəhrəman qızı. Bakıda Nərimanov rayonundakı xəstəxananın önündə büstü qoyulub. Bakıda yaşadığı Mustafa Kamal Atatürk prospekti 2a ünvanındakı binaya xatirə lövhəsi vurulub. Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetinin Tibbi biologiya kafedrası onun adını daşıyır, kafedrada xatirə lövhəsi vurulub. Xəzərdə üzən gəmilərdən biri onun adını daşıyır, gəmidə muzeyi yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 1993-cü il tarixli 31 saylı fərmanı ilə Gültəkin Məlik qızı Əsgərova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bir şəhidimizin adının əbədiləşdirilməsi məqsədi ilə görülən işlər Vətən qızına olan ehtiramdır, sevgidir.

## AZƏRBAYCAN QADINININ ƏZƏMƏTİ

Uşaqlıqdan öz möhkəm iradəsi ilə seçilən və sonradan bu iradəni əməli fəaliyyətində göstərən Salatın Əsgərova da bir şəhid ömrünü həyat yoluna, tərcümeyi-halına həkk etdi. 16 dekabr 1961-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olan Salatın 1979-cu ildə Bakı şəhərində Mikayıl Müşfiq adına 18 saylı orta məktəbi əla qiymətlərə başa vurur və həmin il Azərbaycan Neft və Kimya İnstitutuna daxil olur. 1984-cü ildə geofizika ixtisası üzrə mühəndis diplomu alan Salatın Əsgərova jurnalistika sahəsinə böyük maraq göstərir. Nəticədə 1984-cü ildə müqavilə ilə "Bakı" qəzetində, 4 il sonra isə "Molodyoj Azerbaydjana" qəzetində işləməyə başlayır. Onun toxunduğu məsələlər Azərbaycan torpaqlarının bütövlüyü ilə bağlı idi. O, tez-tez cəbhə xəttinə gedər, qaynar nöqtələrdən operativ materiallar hazırlayardı. O, 1991-ci ilin yanvarın 8-dən 9-na keçən gecə Bakıdan Şuşaya yola düşür. Öz peşə borcunu yerinə yetirmək üçün. Lakin Salatın Əsgərova düşmən gülləsinə tuş gəlir. Salatın Əsgərova Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilir.

Ailəli idi, Ceyhun adlı oğlu yadigar qalır. Ölümündən sonra Beynəlxalq Jurnalistlər İttifaqı Konfederasiyasının laureatı adına layiq görülüb. Salatın Əsgərovanın yaxınlığında həlak olduğu kənd Salatın kəndi adlanır. Onun Bakıda yaşadığı binada xatirə lövhəsi vurulub. Bakıda küçələrdən biri, Bakı buxtasında gəzinti gəmisi və Qadınlar İctimai Birliyinin təsis etdiyi mükafatı onun adını daşıyır. Təfəkkür Universitetində büstü qoyulmuşdur. Azərbaycanın şəhid xanımları. Vətənin keşiyində durmağı bacaran, döyüşdən qorxmayan, lazım gələrsə, silaha sarılan Azərbaycan qadınları. Onların hər birinin həyat yolu məktəbdir, igidlik, qəhrəmanlıq, şücaət məktəbidir. Hər birinin adı dillərdə əzbər, dastandır. Azərbaycan qadının əzəməti dünyaya bəllidir. Sizlərin qoyundan su içdiyiniz Azərbaycan, məhz belə övladlar yetirir və ona görə də bu torpaq basılmaz!

***Zümrüd BAYRAMOVA***

# Turizm məkanlarının coğrafiyası genişlənir








Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün öləmiz perspektivli turizm ölkəsinə çevirib. Son illər ərzində ölkəmizdə turizm coğrafiyası genişlənib. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir. Azərbaycanda müasir tələblərə cavab verən otellərin inşası da əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün göstəricisidir. Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi dünyanın ən məşhur firma və şirkətlərinin, brendlərinin ölkəmizə diqqətinin artmasına səbəb olub. İqtisadi inkişaf nəticəsində turizm sektoruna da xüsusi dövlət qayğısı, o cümlədən sahibkarlıq fəaliyyətinə əlverişli mühitin yaradılması dünyanın tanınmış otel şirkətlərinin də ölkəmizə axınını gücləndirib. Turizm fəaliyyəti üçün əlverişli şəraitin mövcudluğu, turizm ehtiyatları, ölkənin zəngin coğrafi landşafta malik olması, xalqımızın qədim mədəni-tarixi irsi, eləcə də onun fauna və florası bu sahənin sürətli inkişafına yol açan əsas amillərdir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir.

## BÜTÜN REGİONLARDA TURİZM FƏALİYYƏTİ STİMULLAŞDIRILIR



Dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır. Ölkəmizdə mövcud olan qoruqları ziyarət edənlərin sayında son illərdə artım müşahidə edilir. Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət tarix-bədii qoruğu, Nardaran tarix-mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, "Çıraqqala" Tarixi-Memarlıq Qoruğu, "Şabran şəhəri" Tarixi Qoruğu, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Ziyarətçilərin qoruqları rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Qoruqların bir qismindən turizm məqsədləri üçün istifadə edilir. Ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl işlər görülməkdədir. Bütün bunlar ölkəmizin turizm potensialını daha da artıracaqdır.



## TURİZM POTENSİALLI MƏKANLAR

44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Bu gün işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl kimi rayonların turizm potensialı böyükdür. Bu ərazilərdə aparılan abadlıq-quruculuq işləri turistlərin diqqətini həmin məkanda olan flora və faunaya, mədəniyyət abidələrinə cəm edəcək. Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. daş yaddaşa çevrilib. Ermənilərin qurbanına çevrilən abidələrimiz bərpa və təmir edilir, şəhərlərimiz müasir məkan olaraq turistlərin diqqətində olacaqdır. İlk insan məskənlərindən olmuş məşhur Azıx mağarası, Qaraköpək, Üzərliktəpə kurqanları, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Mir Möhsün Nəvvabın ev muzeyi və s. çoxsaylı turistlərin ziyarətgahına çevriləcək. Bu onu deməyə əsas verir ki, yaxın zamanlarda Azərbaycanın turizm məkanlarının coğrafiyası daha da genişlənəcəkdir.

Öz təbii sərvətləri ilə seçilən torpaqlarımızın səfalı və müalicəvi əhəmiyyət daşıyan yerləri, flora və faunasının başqa bir ab-havası var. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitib-tükənməyən nümunələri böyük maraq doğurur. Dövlət başçısı çıxışlarının birndə vurğuladığı kimi, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək.

İşğaldan azad olunan ərazilərimiz sırasında Ağdam da var ki, 27 ildən sonra günəş şüaları ilə nurlanmış bu şəhər yeni dövrünə qovuşub. Rayonun onlarla tarixi yaşayış məskənləri Eneolit dövründən günümüzə kimi gəlib çatmışdır. Bu maddi-mənəvi abidələr müxtəlif bölgü əsasında qruplaşdırılmış və hər biri tarixə əsaslanaraq, "Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsinə götürülmüş daşınılmaz mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü" adlı kitaba daxil edilmişdir.

Ağdamın ziyarətgahları sırasında Qutlu Musa türbəsi, Xanoğlu türbəsi, Şeyx Nigari türbəsi, Uğrulla bəyin türbəsi və s. bu şəhərin tarixinin qədimliyini özündə əks etdirir. Tarixi memarlıq abidələri sırasında Pənah xanın imarəti, İki sandığa bənzər abidə, Karvansara, Hatəm Məlik qalası və digərləri hər bir kəsin diqqətində ola biləcək nümunələrdir.

Əlbəttə ki, Ağdamın turizm məkanlarından söz açarkən, Ağdam Çörək muzeyini xüsusi olaraq qeyd etməliyik. Azərbaycanın Ağdam şəhərində yaradılan Çörək muzeyi 25 noyabr 1983-cü ildə ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat vardı. Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. İlk atılan mərmi üçüncü sərgi zalına düşsə də, partlamamışdı. Digər mərmi isə 1992-ci ilin avqust ayının 12-də Əsgəran rayonunun Xanabad və Naxçıvanik kəndi istiqamətindən atılan zaman muzeyə düşərək, muzeyi tamamilə məhv etmişdir. Nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv olmuşdur.

Burada gündə 8-10 ton buğda üyütmək gücü olan mexaniki dəyirman yerləşirdi və 1930-cu illərində istifadə edilən "Triyer" taxıl təmizləyici qurğusu sərgilənirdi. Muzeydə əmək alətləri - xış, vəl, çin, oraq, II əsrə aid əl dəyirmanı (kirkirə), "çarçar" adlı taxıldöyən yer almışdı. Mənbələrdə qeyd olunur ki, muzeyin 2800-ə yaxın eksponatı arasında Ağdam ərazisindəki "Çalağan təpədə" arxeoloji qazıntılar zamanı aşkar edilmiş və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da olub. Undan hazırlanan məhsullar, o cümlədən, Gəncə, Naxçıvan, Qarabağ, Gürcüstan, Ermənistan, Dağıstan, Səmərqənddə bişirilən çörək növləri muzeyə gələn ziyarətçilərdə böyük maraq yaradırdı. Müxtəlif taxıl növləri, buğdadan hazırlanmış eksponatlar, müharibə dövründə uşaqlara verilən çörək kartoçkaları, eləcə də, buğda dənələrindən düzəldilmiş Azərbaycan xəritəsi və muzeyin eksponatları sırasında rəngarəngliyi ilə seçilib. Maraq doğuran məqamlardan bir də muzeyin divarlarında əks olunmuş atalar sözləri olub. "Çörək baha olanda ölüm ucuz olar", "Qılınc kəsməyəni çörək kəsər" atalar sözləri də çörəyin müqəddəsliyini, gücünü, qüdrətini bir daha ziyarətçilərə xatırladım. Müqəddəs olan kəlamlar bu muzeyin dəyərini daha da artırmışdı.

Onu da vurğulamaq yerinə düşər ki, 1980-cı illərdə Ağdamda keçirilən "Natəvan" qızlar bayramı, "Xarı Bülbül" beynəlxalq festivalı məhz muzeyə baxışla başlanarmış. Hər daşı bir tarix olan Ağdam şəhəri öz keçmiş imicini yenidən özünə qaytarır və Azərbaycanın turizm bölgəsi kimi Ağdamın da bu sırada öz yeri və payı olacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Uğurlu olmaq sağlam yaşamaq deməkdir"





*PSİXOLOQ İZAH ETDİ*

”Ümumiyyətlə, insan xarakteri doğuşdan gəlmir, sonradan formalaşır. İnsanın xarakterində cəmləşən bir çox xüsusiyyət onun həyatda özünü reallaşdırmasında böyük rol oynayır”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülər Məmmədova deyib. Onun sözlərinə görə, bu xüsusiyyətlərin bəziləri cəsarətli, dəyanətli, inamlı olaraq hərəkətə keçmək, öz motivlərini və məqsədlərini aydın şəkildə bəlli etmək, nə istədiyini bilməkdir. Zamanla xarakter bu kontekstdə inkişaf etdikcə, insanların uğurlu olub-olmaması sualı prioritet olmur, insan sadəcə öz aktivliyindən irəli gedir: Hətta bəzi insanlar uğurlu olmağa can atmır, sadəcə yaşamağı, arzu və istəklərinə çatmaq üçün daim hərəkətdə olur.

İnsanın xarakterindən asılı olaraq, disiplinli olması, özü-özünü motivasiya etməsi onun həyatın nəbzini tutmağı bacarmasının bariz nümunəsidir. Elə yeni yetiməlikdən etibarən hər birimiz üçün həyat qeyri-müəyyən olur, bu qeyri-müəyyənlikdə həm uğur, həm də uğursuzluq ola bilər. Lakin xarakterin bəzi xüsusiyyətləri - səbir, inadkarlıq, iddia səviyyəsinin yüksək olması - insanda istəklərin həyata keçməsinə böyük zəmin yaradır. İnsanın məğlubiyyəti də, uğuru da onun öz davranışından asılıdır. Sadəcə insan yaşadıqca dərk edir ki, yıxıla bilər, amma qalxa da bilər. Bir işdə uğursuz ola bilər, lakin sonra uğur qazana bilər.

Biz belə qurulmuşuq ki, ya dini aspektdən, ya da kainata bağlılıqdan irəli gələrək, bütün baş verən hadisələrin bizim xeyrimizə olduğuna inanırıq. Lakin bəzi zəif xarakterli insanlar, qeyd etdiyim keyfiyyətləri vaxtında inkişaf etdirə bilmədikləri üçün kiçik bir işi görməyə belə tərəddüd edir, çəkinir, utanır və özlərində cəsarət tapa bilmirlər. Hər şeyi aydın görə bilməyən, qorxan və özlərini riskə atan bu insanların inam səviyyəsi zəifdir. Onların iddia səviyyəsi də zəifdir, çünki addım atmağa qorxurlar. Uşaqlıqda valideynləri bunu görüb onları geridə qoyublar. Ya da daha asan yolu seçmək, daha rahat və passiv həyat yaşamaq istəyirlər. Biz belə insanları tənbəl adlandırırıq. Sanki kiminsə onları təşviq etməsi, ruhlandırması lazımdır ki, hərəkətə keçsinlər. Amma bu həmişə baş verməyə də bilər”.

Psixoloq bildirib ki, bu hər kəsə verilə bilməz və qeyd etdiyimiz kimi, ”Uğursuz olsam nə olar?” sualını verən insan demək ki, uğura can atmır. Sadəcə olaraq uğursuzluq qorxusunu yaşayır, o təhlükəni hiss edir. Bu dünyada hər cür insan var. Hər bir insanın müəyyən yaşda ayrılma prosesi olur, çünki həyat hərəkətə keçmək deməkdir, inkişaf etmək deməkdir, özünü sübut etmək deməkdir, mənlik şüurunu inkişaf etdirmək deməkdir.

Nə deyək təqdirdə? İnsanda şəxsiyyət pozuntusu, şəxsiyyət parçalanması baş verə bilər. Parçalanma deyil, şəxsiyyət pozuntusu, davranış pozuntuları baş verə bilər. Yəni insan nə istədiyini strateji aspektdən bilməyə bilər, nə istədiyinin fərqində olmaya bilər. Bu, uşaqlıqdan qaynaqlana bilər. Həmçinin psixi pozuntular da ola bilər. Çox dağınıq insan ola bilər, yekdil bir xarakterə sahib olmaya bilər, qarışıqdır, nə istədiyini bilmir, daim zehnində qarışıq fikirlər olur. Bu gün insanlarla yol getmək çox çətin olur, çünki onlar öz bazalarından məlumat artırmırlar. Ümumiyyətlə, hər addımlarına ehtiyat edir, narahatdırlar, həyəcan pozuntuları var. Bəzi insanların həyəcan pozuntusu olsa belə, o qorxusunun və həyəcanın üzərinə gələrək onu dəf edə bilirlər.

Bir insan var, ”Uğurlu olsam nə olar?” sualını gənc yaşlarında verirsə, görünür evdə eşitdiyi bəzi fikirlərdən və ya vaxtilə zihninə yeridilən bəzi düşüncələrdən dolayı, onun şanslı olmaq, uğurlu olmaq, çox pul qazanmaq kimi fobiyası var. Buna görə addım atanda ehtiyat edir ki, böyük şöhrət qazanaram, çox uğurlu olaram, başım fırlanar və mən dəyişərəm deyə düşünür. Təəssüf olsun ki, bu belə deyil. Hər bir insana sağlam zehn verilib və insan öz sağlam zehnindən istifadə etməlidir. Uğurlu olmasan da, uğursuz olub da zehnin korlana bilər, pis davranışlara yol tuta bilərsən. Ona görə hər kəsin təfəkkür potensialından asılı olan bir istəyi var.

Uğurlu olmaq sağlam yaşamaq deməkdir. Ətrafına sevgi bəxş etməyi bacarmaq deməkdir. Uğurlu olmaq insanın bu həyatda öz ayaqları üstündə durması, müstəqilliyi, ətrafına gözəl insanları seçməsi, həyatın hər anından zövq alması deməkdir. Uğur, bəlkə də böyük mükafatlar qazanmaq deyil. Uğurlu olmaq insanın bu həyatı bələdləşdirməsi, öz fərqindəliyini anlaması deməkdir. Ən başlıcası budur. Uğurlu insan öz fərqindəliyini anlayan və həyatın nəbzini tutmağı bacaran insandır.

***Günel Fərzəliyeva***



## “Görüş regionun siyasi tarixində dönüş nöqtəsi ola bilər”

“2025-ci il avqustun 8-də Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Trampın təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Vaşinqtonda yüksək səviyyəli görüşün keçirilməsi planlaşdırılır. Məlumatlara əsasən, Tramp hər iki liderlə ayrı-ayrılıqda təkbətək görüşlər keçirəcək, daha sonra isə



üçtərəfli müzakirələrin təşkili nəzərdə tutulur”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib. Elman Nəsirov sözlərinə belə davam edib: ”Bu diplomatik təşəbbüs kontekstində Donald Trampın son dövrlərdə Azərbaycan və Türkiyə ilə sıx münasibətlər qurmağa və regionda fəal vasitəçi rolunu üzərinə götürməyə çalışdığı müşahidə olunur. Trampın bu prosesdə fəallığı, onun beynəlxalq arenada nüfuzunu artırmaq və tarixdə ”sülh təşəbbüskarı” kimi qalmaq istəyi ilə izah olunur. Bildirildiyinə görə, Tramp Nobel Sülh Mükafatına namizəd olmaq niyyətini də açıq şəkildə bəyan edib. Hazırda dünya siyasətində dörd əsas regional münaqişənin həlli üçün atılan addımlar arasında Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi xüsusi önəm daşıyır. Donald Trampın bu münaqişənin normallaşdırılması və sülh sazişinin imzalanması prosesinə töhfə vermək istəyi açıq şəkildə hiss olunur. Bu da ABŞ-ın regionda daha aktiv vasitəçi qismində çıxış etmək istəyinin təzahürü kimi qiymətləndirilə bilər.

Avqustun 8-də keçiriləcək görüşdə birbaşa sülh müqaviləsinin imzalanması gözlənilməsə də, bu istiqamətdə ciddi razılaşmaların və çərçivə sənədinin qəbul olunması ehtimalı yüksək qiymətləndirilir. Belə sənədin imzalanması gələcəkdə sülh sazişinin bağlanmasını sadəcə zaman məsələsinə çevirə bilər. Nəticə etibarilə, beynəlxalq ictimaiyyətin və region ölkələrinin diqqəti hazırda Vaşinqtona yönəlib. Bu görüş, sözün əsl mənasında regionun siyasi tarixində dönüş nöqtəsi ola bilər”.

***Ayşən Vəli***

# Xaricdə təhsil alan daha 107 nəfərin diplomu tanınmadı - səbəb?

***İyul ayı üzrə 694 müraciətçinin 587-si barədə müsbət qərar verilərək onlara müvafiq şəhadətnamələr təqdim edilib, 107 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Bu barədə SİA-ya Təhsildə Keyfiyyət Təminatı Agentliyindən (TKTA) məlumat verilib.***

Bildirilib ki, mənfi qərarla yekunlaşan müraciətlərə nümunə olaraq 78 fakt üzrə tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma, 5 akkreditasiyasız ali təhsil müəssisəsi, 5 dövlət nümunəli olmayan transkript (qismən tanınmaya münasibətdə), 5 dövlət nümunəli olmayan diplom, 4 təhsilalma forması, 3 əhəmiyyətli fərq (kredit sayı), 3 tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma və əhəmiyyətli fərq (kredit sayı), 2 tədris yükü, 1 bakalavr diplomuna imtina verilməsi səbəbilə, 1 akkreditasiyasız filial və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olmanı göstərmək mümkündür.



Ölkələr üzrə Türkiyədən 285, Rusiyadan 228, Ukraynadan 55, Birləşmiş Krallıqdan 28, Gürcüstandan 25, Konqo və Çin Xalq respublikalarının hər birindən 8, İtaliya Respublikasından 6, Macarıstandan və Polşa respublikalarının hər birindən 5, Belarus, Latviya və Almaniya Federativ respublikalarının hər birindən 4, Amerika Birləşmiş Ştatları, Fransa, Qazaxıstan və Çex respublikalarının hər birindən 3, İran, Niderland və Belçika krallıqlarının hər birindən 2, Estoniya, Koreya, Litva, Özbəkistan, Slovakiya, Əlcəzair Xalq Demokratik, Somali Federativ və Pakistan İslam respublikaları, Kanada, həmçinin İspaniya və İordaniya Haşimilər krallıqlarının hər birindən 1 müraciət qeydə alınıb. Ən çox müraciət olunan ixtisaslara gəlincə, tibb və səhiyyə ixtisasları üzrə 173, iqtisadiyyat üzrə 46, biznesin idarə edilməsi üzrə 44, maliyyə üzrə 30 müraciət qeydə alınıb.

# “Görüşdə birgə bəyanat və memorandum gözlənilir”



“Ermənistan Baş naziri Nikol Paşinyanla Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarındakı görüşü böyük gözləntilər doğurur”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib. O bildirib ki, ən azından, görüş nüfuzlu bir ölkədə - ABŞ-da keçirilir: ”Xüsusilə də Amerika Prezidenti Donald Trampın da tərəflərlə görüşü əsasında həyata keçiriləcəkdir. Ona görə də biz bu görüşdən müəyyən irəliləyişlər gözləyə bilərik. Ən azından, görüşün nəticəsi olaraq birgə bəyanatın səsləndirilməsi, eyni zamanda ehtimal var ki, memorandum və yaxud da hər hansı bir çərçivə sazişinin imzalanması da real ola bilər.

Çünki Əbu-Dabidə bundan əvvəl keçirilən Azərbaycan Prezidenti ilə Ermənistan Baş naziri arasında görüşdə də müəyyən irəliləyişlər olmuşdu, müəyyən razılaşmalar əldə edilmişdi və bu danışıqların nəticəsi olaraq ABŞ-da çox böyük nəticələr gözlənilir.

Azərbaycanın Ermənistan tərəfinə irəli sürdüyü haqlı tələblər, ATƏT-in Minsk Qrupunun buraxılması ilə bağlı məsələ, Konstitusiyanın dəyişdirilməsi, Azərbaycana qarşı ərazi iddialarından əl çəkilməsi məsələsi də bu görüşdə əsas predmetlərdən biri olacaqdır və elə bu istiqamətdə müəyyən irəliləyişlər əldə etmək mümkün olacaqdır. Xüsusilə də Amerikanın Cənubi Qafqazda sülhə və təhlükəsizliyə vermək istədiyi töhfəni də biz nəzərə almalıyıq. Tramp hakimiyyəti əvvəlki illərdə olduğu kimi yenə də Cənubi Qafqazda sülh və təhlükəsizlik görmək istəyir. Həm bölgədə sabitliyin, həm də iqtisadi fəallığın artırılması, xüsusilə də Zəngəzur dəhlizinin açılaraq bölgə və digər maraqlı ölkələrin, dünya dövlətlərinin bu dəhlizdən iqtisadi dividentlər əldə etməsi məsələsi də gündəmdədir. Amerikada keçiriləcək görüşdə heç şübhəsiz ki, Zəngəzur dəhlizinə bağlı məsələlər də müzakirə olunacaq. Yəni dəhlizin təhlükəsizliyinin qorunması, Azərbaycanın hansı ki, haqlı tələbi var - bir hissəsi ilə digər hissəsinin maneəsiz olaraq birləşdirilməsi bu dəhliz vasitəsilə təmin olunması da əsas danışıqlar predmeti olacaqdır”.

*Günel Fərzəliyeva*

# “Bu gün həmin reallıq artıq tarixə çevrilib”





“Azərbaycan mühüm bir tarixi zəfərə imza atıb. Bu zəfərin qazanılmasından artıq beş ilə yaxın bir müddət keçir. Ötən il baş verən hadisələr isə bir daha göstərdi ki, Azərbaycan yalnız hərbi sahədə deyil, həm də diplomatik müstəvidə ciddi nailiyyətlər əldə edə bilib. Ordumuzun döyüş meydanında qazandığı uğurlar diplomatik masada da uğurla qorundu və bu nailiyyətlər hüquqi müstəvidə möhkəmləndirildi”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib. Deputat qeyd edib ki, bu baxımdan, biz artıq tarixi zəfərimizin sadəcə hərbi aspektləri ilə yox, həm də onun nəticələrinin davamlılığı və gələcək təsirləri ilə maraqlanmalıyıq: ”Zəfərin beş illiyi ərəfəsində bu qələbəni yalnız retrospektiv yox, həm də strateji baxış bucağından qiymətləndirmək vacibdir. Zəfərimiz təkcə 2020-ci ildəki hərbi qələbə ilə məhdudlaşmır - sonrakı dövrdə ölkəmizin həyata keçirdiyi tədbirlər bu uğurun davamlı olduğunu sübut etdi. Xüsusilə, 2023-cü ilin sentyabr ayında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri Azərbaycanın suveren hüquqlarının tam bərpası baxımından mühüm mərhələ oldu.

Bununla yanaşı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə apardığı quruculuq işləri, Qarabağ və Şərqi Zəngəzurun yenidən bərpası həm iqtisadi, həm də strateji baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu ərazilərin yenidən ölkə iqtisadiyyatına inteqrasiyası, orada həyatın bərpası və əhalinin geri dönüşü dövlətin planlı və uzaqgörən siyasətinin göstəricisidir. Bütün bu proseslər birlikdə göstərir ki, xalqımızın əldə etdiyi zəfər son iki əsrlik tariximizdə analoqu olmayan bir hadisədir. Bu, sadəcə bir uğur yox, həm də möcüzə kimi qiymətləndirilə bilər. Çünki biz çox zaman ağılın qəbul edə bildiyi hadisələri reallıq, ağlın dərk etməkdə çətinlik çəkdiyi hadisələri isə möcüzə adlandırırıq. Heç kim düşünə bilməzdi ki, vaxtilə, təqribən 200 il əvvəl Qarabağ və Xankəndinə köçürülmüş erməni əhali bu torpaqlardan tamamilə çıxacaq və bölgə Azərbaycan dövlətinin suveren idarəçiliyinə qayıdacaq.

Bu gün həmin reallıq artıq tarixə çevrilib və Azərbaycan öz torpaqlarında ərazi bütövlüyünü tam bərpa edərək güclü, suveren dövlət kimi regionda söz sahibinə çevrilib. Bu, yalnız bir savaşın deyil, eyni zamanda bir xalqın iradəsinin, bir dövlətin milli həmrəyliyinin və liderliyinin təntənəsidir”.

*Günel Fərzəliyeva*



MƏTANƏT

# Ya səsin olmalıdır, ya da...

***Deyirlər ki, indi şou-biznes aləmində açıq-saçıq geyinmədən məşhurlaşmaq mümkün deyil. Sizlər də şahidisiniz ki, əksər qadın müğənnilərin paltarlarının ya yuxarı, ya da aşağı hissəsi söhbətimizin mövzusu kimidir. Vallah, yağışdan sonra göbələklər necə çoxalırsa, bu cür müğənni və geyimlər də hər gün çoxalır, yəqin fikir verənlər az olmaz aramızda.***

Maraqlıdır, bu cür geyinmədən məşhurlaşmaq olmur? Geyimin məşhurlaşmağa, tanınmağa nə dəxli var? Hələ tək müğənnilər yox, bəzi televiziya aparıcıları da bu cür geyimlərə müraciət edir. Yox, vallah, bilmədiyimiz nələrsə var. Ya da hələ də dərketməmizin anlamağa imkan vermədiyi başqa bir məsələ var. Axı geyimlə məşhur olmağın nə əlaqəsi ola bilər ki?

Çox fikirləşəndən, götür-qoy edəndən sonra axır ki, tapdım bu cür geyimlərin səbəbini. Belə geyinən aparıcı və müğənnilərimiz var ha, onlara istedad və savad küləyi dəyməyib. Nə oxuduqları mahnıdır, nə səsləri səs, nə də televiziya kanallarında danışdıqları sözdür. Yığnaqdır. Bu səbəbdən də gücü verirlər geyimə ki, bəlkə geyimləri ilə diqqət çəkələr. Hə, müşahidə etdiyim müğənniləri də, aparıcıları göz önünə gətirdim, gördüm ki, ay Allah, necə də düz düşünürəm. Sizcə necə, doğru fikirdəyəmmi?

Mənimlə razılaşanlar, bilirəm ki, yüzlərlə, minlərlə olacaq. Razılaşmayanlara isə elə indicə real bir fakt söyləyəcəyəm. Ki, biz qəzet əhli ilə razılaşmaqdan başqa çarə ola bilməz. Buyurun, dinləyin. Əgər məşhur olmaq üçün bədənin yarısını açıb göstərməyi vacib bilirsinizsə, siz çox-çox yanılırsınız və səhv düşüncədə, səhv yoldasınız. Məşhur müğənnilərimizdən Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, Rübabə Muradova, Sara Qədimova, Zeynəb Xanlarova, Səkinə İsmayılova, Fidan və Xuraman Qasımova bacıları, Gülyaz və Gülyanaq Məmmədova bacıları, Mələkxanım Əyyubova, Nəzakət Teymurova, Aygün Bayramova, Şahnaz və Aybəniz Haşımova bacıları, Azərin, Zülfiyyə Xanbabayeva, aparıcılarımızdan Ofelya Sənani, Roza Tağıyeva, Şərqiyyə Hüseynova və adlarını çəkmədiyim, bunun üçün üzr istədiyim müğənni və aparıcı qadınlarımız var ki, onlar mentalitetimizə uyğun geyimləri ilə həmişə nümunə olublar. Eyni zamanda bu cür geyimlərində də Azərbaycanın ən məşhur müğənni və aparıcı qadınları olub və olmaqdadırlar ki, bundan sonra onları əvəz edə biləcək az sayda müğənni və aparıcı var.

Necə düşünürsünüz, razılaşırsınızmı mənimlə? Razılaşmalısınız, çünki haqlıyam. İndi sözüm həmin o müğənni və aparıcılaradır: istedadınız varsa, səhnəyə, ekranlara çıxın, inanın ki, paltarlı da məşhur olmaq mümkündür. Əks təqdirdə, istedadınız yoxdursa, üstəlik paltarınızı da biabırçı vəziyyətə gətirirsinizsə, çox yazıqlar olsun sizə ki, azərbaycanlısınız...

Hə, diqqətimi çəkən bir məsələni də deməsəm olmaz. Belə açıq-saçıq paltarlı müğənnilərin də, aparıcıların da əlləri, fikirləri qalır o açıq yerlərdə. Bunu da hər kəs bir cür dəyərləndirə bilər. Lakin mən belə dəyərləndirirəm ki, biz azərbaycanlıyıq, milli mentalitetimiz var. Şüuraltına həkk olunmuş genetik kodlarımızdı o əlləri açıq-saçıq yerlərə aparan. Buna çox sevinirəm. Çünki deməli, hələ də azmaz qalan nə isə var. Belə isə silmək yox, üstünə gətirmək barədə düşünmək lazımdır...

Xatirələrdə səsi, istedadı ilə deyil, bədəni ilə qalan müğənni və ya aparıcı olmaqdansa, bacardığınız işin ardınca getməyiniz daha yaxşı olar. Soyunmayın, siz Allah, yazıqdır bu insanların sizi görən gözləri...

# Tehran komandanları dəyişir

***Avqustun 4-də İran rəhbərliyi İsrailin iyunun 13-nə keçən gecə başlayan "Xalq şir kimi" əməliyyatı səbəbindən kəsilən ABŞ ilə birbaşa danışıqlar perspektivini rədd edib. Tehran gərginliyin növbəti raundunu hesablayır və təhlükəsizlik məsələlərini mərkəzləşdirilmiş qaydada həll etməli olacaq xüsusi qurumun - Müdafiə Şurasının yaradılmasını elan edib. Həmin gün İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi İsmail Bəqayi ABŞ-la birbaşa danışıqlardan imtina etdiyini açıqlayıb. "Xeyr, istisnadır", - diplomat izah etdi. "İstənilən potensial danışıqlar çərçivəsində İranın dinc nüvə sənayesi obyektlərinə qarşı hərbi təcavüzə görə ABŞ-ın məsuliyyətə cəlb edilməsi və təzminat tələb edilməsi məsələsi gündəmin mövzularından biri olacaq".***

Bundan əvvəl İranın xarici işlər naziri Abbas Əraqçi bildirmişdi ki, Vaşinqton əvvəlcə Tehrana 12 günlük müharibədən dəyən ziyanı maliyyə cəhətdən kompensasiya etməli, sonra isə danışıqlar tələb etməlidir. Eyni zamanda, yaxın həftələrdə Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) nümayəndə heyətinin İrana səfəri planlaşdırılır. Buraya mütəxəssis müfəttişlər daxil olmayacaq və danışıqların özündə İranın nüvə proqramının "siyasi tərəfi" diqqət mərkəzində olacaq.










Bu arada, görünür, Tehran ABŞ prezidenti Donald Trampın dialoqu bərpa etməkdən imtina edəcəyi təqdirdə ona söz verdiyi qarşıdurmanın yeni raunduna fəal şəkildə hazırlaşmağa başlayıb. Ən azı, İranın Ali Milli Təhlükəsizlik Şurası (MTŞ) xüsusi komandanlıq strukturunun - Müdafiə Şurasının formalaşdığını elan edib. O, ölkənin xarici təhlükələrdən qorunması ilə bağlı məsələlərə cavabdeh olacaq. "Konstitusiyanın 176-cı maddəsinə uyğun olaraq, Ali Milli Təhlükəsizlik Şurası ölkənin Müdafiə Şurasının yaradılmasını təsdiqləyib", - MTŞ-nin bəyanatında deyilir. "Yeni müdafiə qurumu mərkəzləşdirilmiş şəkildə müdafiə planlarını nəzərdən keçirəcək və İran Silahlı Qüvvələrinin (SQ) imkanlarını artıracaq".

Müdafiə Şurasının rəhbərinin İran prezidenti Məsud Pezeşkian olacağı və onun tərkibinə ədliyyə sisteminin rəhbəri, İran parlamentinin (Məclisin) spikeri, yüksək rütbəli hərbçilərin və təhlükəsizliyə cavabdeh olan əsas nazirlərin daxil olacağı dəqiqləşib.

Xarici KİV-lər belə bir təşəbbüsün son onilliklərdə ilk dəfə həyata keçirildiyinə və çox güman ki, İranda nizami ordunun funksiyalarını təkrarlayan nüfuzlu hərbi-siyasi struktur olan İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) nizami Silahlı Qüvvələrinin imkanlarını birləşdirməyə yönəldiyinə diqqət çəkirlər. Bundan əlavə, Müdafiə Şurasının yaradılması üçün mühüm kontekst İsrailin dəqiq zərbələri nəticəsində İranın komanda zəncirinin dağılmasıdır: 12 günlük müharibə zamanı strateji istiqamətlərə cavabdeh olan onlarla general sıradan çıxarılıb.

Bu yaxınlarda İran ordusunun baş komandanı, general-leytenant Əmir Hatəmi bəyan edib ki, İsraildən gələn təhdidlər hələ də qalmaqdadır. "Biz hətta İsraildən 1%-lik hücum ehtimalını 100% təhlükə kimi qəbul etməliyik", - deyə hərbi lider vurğulayıb. "Biz düşməni qiymətləndirməyə və bütün təhdidlərin keçmişdə qaldığını düşünə bilmərik". Onun sözlərinə görə, İranın raket qüvvələri və pilotsuz təyyarələri hələ də yüksək hazırlıq vəziyyətindədir və İsrail və ya ABŞ-dan hərbi fəaliyyət əlamətləri yaranarsa, onlar yerləşdiriləcək.

Müdafiə Şurasının yaradılması İsraillə yeni müharibəyə hazırlıq elementidir. İranda Müdafiə Şurası qərarların qəbulunun daha səmərəli olması üçün yaradılır. İndiyədək məhz Ali Milli Təhlükəsizlik Şurası - müdafiənin təşkilinə birbaşa aidiyyatı olmayan çoxlu sayda məsələləri müzakirə edən daha çətin struktur idi. Burada artıq qurum formalaşır, burada kimin nəyə görə cavabdeh olduğu və dəqiq qərar xəttinin haradan çəkiləcəyi bəllidir. Şərti desək, bura kimin kiminlə əlaqə saxlaması və kimin nəyə cavabdeh olması ilə bağlı suallar daxildir. Müvafiq struktur İsrailin iyun əməliyyatı ilə bağlı müşahidə oluna biləcək regionda açıq qarşıdurma zamanı müdafiəni təmin etməyə yönəldiləcək. Struktur müdafiə məsələlərinə birbaşa aidiyyəti olan və müdafiə problemlərinə birbaşa aid olmayan digər mövzuların çıxarılacağı gündəmə yönəldiləcək. Bu, o demək deyil ki, Tehranda belə strukturlar yox idi, lakin bir çoxları təkrarlandı və fəaliyyət göstərmədi. İndi onu NSSC-dən ayıraraq, ayrıca struktur yaratmaqla yeniləməyin vaxtı çatıb.

Xatırladaq ki, İrana İsraillə birbaşa münaqişədə cavab zərbələri endirmək üçün nə qədər vaxt lazım olub. 12 günlük müharibədə baş verənlərə işarə edərək, deyə bilərik ki, daxili ünsiyyət və qərarların qəbulunun mürəkkəbliyi ilə bağlı problemlər var idi. Qərarların daha sürətli qəbul edilməsi üçün təsdiqləmə prosesi sürətləndirildi və son qərarı kimin verəcəyi müzakirə edildi. Bu baxımdan Müdafiə Şurası elə fəaliyyət göstərəcək ki, hərbi rəhbərlər və mülki hakimiyyət bu cür müzakirələrə vaxt itirməsinlər.

***V.VƏLİYEV***

# Xurşidbanu Natəvan:

## 273 yaşlı Şuşamızın 193 yaşlı qızı

*Dünyaya Xan qızı kimi gələn, lakin həyatın keşməkeşlərinin natəvanına çevrilən, ömrünün bir hissəsini Xurşid, bir hissəsini isə Natəvan kimi yaşayıb-yaradan azərbaycanlı qadın haqqında danışmaq istəyirəm. Şuşanın gözəl təbiətini misralayıb sətirlərə köçürən, bəzən aşiq, bəzən təbiət vurğunu, bəzən kədər şairi, bəzən dövrana, haqsızlığa qarşı çıxan söz-sənət adamından bəhs etmək istəyirəm. 2022-ci ildə ölkə Prezidentinin sərəncamı ilə anadan olmasının 190 ili zəfərli ölkədə qeyd olunan Xurşidbanu Natəvandan söhbət açmaq istəyirəm.*

Doğulduğu ata-baba yurdu-Şuşası 30 il işğal altında qalan, qəbri, məqbərəsi dağıdılan, sümükləri yağı düşmən tərəfindən oğurlanan, həmyerliləri doğmasından qoparılan, bütün tarixi, mədəniyyət abidələri məhv edilən bir şəhərin qızından- Natəvandan. Bir də azad olunan yurdunda bu gün ruhu azad dolaşan, məqbərəsi bərpa olunan Şuşa gözəlindən, poeziyası ömrünün akkordlarına çevrilən ilk azərbaycanlı şairədən danışmaq istəyirəm.





### Sarayın tək incisi

Qarabağın sonuncu xanı Mehdiqulu xan tək övladına anası Xurşidbanunun adını vermişdi. Xan nəslinin sonuncu vərəsəsi Xurşidbanu tək övlad olduğu üçün sarayın tək incisi çağırılırdı. Yaxşı tərbiyə görən bu qız yaxşı da təhsil almışdı. Ərəb, fars dillərini mükəmməl öyrənməsi onun ədəbiyyatımızın klassiklərini oxumasına şərait yaratmışdı. Qasım bəy Zakir, Mirzə Camal Cavanşir Qarabaği, Mirzə Adıgözəl bəy Qarabaği, Əhməd bəy Cavanşir kimi qohumlarının ruhu şeir üstə köklənən bu qızın şair kimi formalaşmasında xüsusi əməkləri olmuşdu.

Şuşanın bənzərsiz təbiət gözəllikləri isə sən demə bu Şuşa gözəlinin ruhunu zamanla oxşayacaqdı. Bu oxşamalarla o, gözü önündəki gözəllikləri misralayıb gözəl sənət əsərləri meydana çıxaracaqdı. Belə də oldu. Şairənin təbiəti vəsf edən şeirlərinin leymotivini məhz Şuşanın ecazkar təbiəti təşkil edir. Xurşidbanu özü tək inci idi, özü kimi də ölməz, həmişəyaşar incilər yaratdı. Bu gün də dəyərli, oxunaqlı, oxuduqca insanı düşündürən incilər....





### Elin "Xan qızı"

Sarayın tək incisi məxsus olduğu elin dilində "Xan qızı" idi. Xan qızı olduğu həyatının bütün mərhələlərində xanlara layiq xüsusiyyətləri ilə meydana çıxırdı. Mənsub olduğu soyun, kökün, nəslin böyüklüyü onun xarakterində özünü büruzə verir, əməlləri bunu təsdiq edirdi. Xan qızına məxsus keyfiyyətləri onu xeyriyyəçilik kimi yüksək insani hisslə də birləşdirmiş, torpağına, elinə bağlı bu qadını şəxsiyyətə çevirmişdi. Xurşidbanu Natəvanın Şuşada "Məclisi üns" ədəbi məclisini təşkil etməsi, 1873-cü ildə Şuşaya su kəmərini çəkdirməsi (bu su kəməri indi də "Xan qızı bulağı" adı ilə məşhurdur), Araz çayından Mil düzünə su kəməri çəkməyə təşəbbüs etməsi onun xan nəslinə məxsusluğunun, eyni zamanda idarəetmə bacarığına malik qadın olduğunun göstəriciləri idi. Şairənin həyatına nəzər saldıqda onun həm gözəl şair, həm xeyriyyəçi, həm mehriban ana olması və bunların hər birini özünəməxsus şəkildə ifadə edə bilməsi onun 193 il sonra da eyni hörmət, dəyərlə anılmasını şərtləndirən amillərdir.

### Həyatın natəvanı

Bəli, Xurşidbanu dünyaya xan sarayında gəldi, xan qızı idi, əzizlənib tək inci kimi sevilirdi də. Bütün bunlar taleyin ona nəsib etdikləri idi. Lakin taleyin irəlidə daha nə payları var idi, onun heç ağlına belə gələ bilməzdi. Xurşidbanu bu taleyi həyatının irəlidəki illərində yaşayacaqdı. Bu alın yazıları bir-birinin ardınca yaşandıqca, onlar şairənin qələmindən süzülüb ömür kitabının səhifələrinə çevriləcəkdi. Və o, özünə yeni ad verəcəkdi-Natəvan. Mənası kimsəsiz, köməksiz, zəif anlamına gələn bu söz onun həyatının sonunadək hər addımında qarşısına çıxdığı üçün elə adına artıracağı təxəllüsə çevriləcəkdi.

Xurşidbanu Natəvan poeziyasına dalarkən o, hər misrasında vüsala yetməyən, sevdiyinə qovuşmayan bir qadın obrazı kimi canlanır gözlər önündə... Xan qızı hesab edib, hər istəyinə çatar deyə sandığımız qadının bir qədər də ömründən perik düşən sevdasından danışaq...

### Sən qeyrilər ilə üns tutdun, bilməm niyə yarını unutdun...

Bu, ayrı-ayrı misralarda Natəvanın ömür kitabının səhifələrinə çevrilib. Hər misra onun xoşbəxtliyə, sevməyə, sevilməyə can atmasından, hər dəfə də əlinin boşa çıxmasından danışır. Sanki məhəbbət Natəvan üçün bağçadakı tikanlı qızılgüldür. Hər əlini atıb qoparmaq istəyəndə, əlinə batan tikanların arasından süzən qandır.

Deyirlər, poeziya o zaman təsiredici olur ki, o, içdən gələn hisslərlə yazılır. İçdən gələn hisslər isə düşünürəm ki, o zaman təsirli olur ki, orada əlçatmayan bir hiss olur. Məhz bu zaman oxunan əsər göz yaşartmaq, ürək sızlatmaq gücünə malik olur. Natəvanın misraları kimi:

Qəm yükün çəkməkdən,
ey dil, bir dəm azad olmadım,
Hərçi cəhd etdim, nə hasil,
yetmədim canană mən.

-deyən şair başqa bir qəzəlində:

Mənə ki, guşeyi-çeşm ilə
bir nahən baxdın,
Tez öldürər məni bu
mehnəti-nalən, getmə!

-deyir.

Nə oldu bülbülə kim, qıldı gülsitan tərkin?
Unutdu güllərini, etdi aşiyan tərkin.

-misraları ilə öz halını ifadə edir.

Və yaxud da:

Vüsalə yetməyibən zarü Natəvan qaldım,
Edib fələk yenə həsrət o məhcəmalə məni.

-deyir.

### Hicran edibdir könlümü bərbad, ağlaram...

Nicran Natəvanın könlünü bərbad etmişdi. O, gizli ağlayırdı, göz yaşlarını hamıdan saxlayırdı. Onun göz yaşları gəncliyinin ilk illərindən axırdı. Lakin çarizm Qarabağda xanlığın davam etdirilməsinə son qoyduğu kimi, Xurşidbanunun da həyatına müdaxilə edəndə, onu öz maraqları naminə seçdiyi adamla evlənməyə vadar edəndə, ta dayanmadı. Evlənməyə məcbur oldu, dünyaya övladlarını da gətirdi. Lakin əri Xasay xan Usmiyev onun üzündə gülüş ola bilmədi. Şuşasından aralı qalan könlü yaralı quş tək qanadlandı, lakin uça bilmədi. Bu qəlb nisgillə doldu, nicran çəkdi. Bu isə həssas şair qəlbi üçün nə deməkdir, aydındır.

Yanar çün Natəvan xəstə,
müdam ol atəşi-qəmdən,
Səbur ol, eylə adət şiveyi-ustad,
pərvanə!

misraları şairənin taleyindən şikayəti deyildimi?..

### Düşmənimdir, bilməzəm kim, netmişəm dövranə mən

Birinci evliliyi uğursuz olan Natəvan Şuşaya qayıdır. İkinci dəfə rəiyyət içərisindən olan şuşalı bir nəfərlə ailə qurur ki, bu da bəyləri çox qəzəbləndirir. Bu səbəbdən ömrünün sonunadək töhmətləndirilir. İkinci evliliyində də övladları dünyaya gəlir. Lakin həyatın bir-birinin ardınca vurduğu sillələrdən özünü kimsəsiz, zəif hiss edir. Sanki həyat Xan qızından üz çevirmişdi. Bir anlıq xoşbəxtliyi ona çox görürdü. Bu aralar əziz övladınıoğlunu da itirən şairə dövrandan şikayət edir: nə eləmişəm, görəsən dövrana, bilmirəm ki... Övladının itkisi onu üzür, qəlbini sıxır, göz yaşlarını sel edir:

Yanar canım, oğul,
daim sənin nari-fəraqında,
Necə pərvanələr hər
dəm yanar şəmin ayağında-
deyən şairə
Qalıbdır Natəvan nalan,
gecə-gündüz olur giryan,
Onun yox dərdinə dərman,
neçin gəlməz, neçin gəlməz?

misraları ilə ahu-zar edir.

### Bütün keyfiyyətləri ilə qəlblərdə yaşayan şairə

Həm böyük bir xanlığa məxsusluğu, həm həssas bir lirizmə malikliyi, həm gözəl xanımlığı, mehriban analığı, həm də xeyriyyəçiliyi ilə ədəbi tariximizin bir parçası, ilk azərbaycanlı şairə qadını olan Xurşidbanu Natəvan xalqımızın qəlbində özünə elə bir qala ucaltmışdır ki, 193 ildir, sevənləri həmin qalanın zirvəsində onu yaşadır, əzizləyirlər. Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyildiyi kimi: Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb yaratmış, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub getmişdir. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplamış və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərmişdir.

Bəlkə də bu sevgi onun heç də razı qalmadığı dünyasından yeganə təsəllisidir.

**_Mətanət Məmmədova_**

# Endirim kampaniyaları - real fürsət, yoxsa istehlakçının aldadılması?

*EKSPERT RƏYLƏRİ*

**"İstənilən endirim kampaniyasının, xüsusən mağazanın görünən yerində qoyulmasının məqsədi istehlakçını mağazaya girməyə təşviq etməkdir. Sonra isə başqa problemlər ortaya çıxır. İstehlakçı malı endirimli qiyməti ilə alır, deyirlər endirimdə deyil". Bunu SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.**





"İkinci problem - məhsulu qaytarmaq və ya dəyişmək istəyərkən, məhsul endirimli qiymətə alındığı üçün bu hal baş vermir. Nazirlər Kabinetinin 94 saylı qərarına görə, hər bir malın üzərində maddi məhsul şəxsin imzası olan qiymət sənədi olmalıdır. İstehlakçı rahatlıqla əvvəlki və endirimdə olan qiyməti görməlidir. Endirim kampaniyası bir çox hallarda marketoloqların istehlakçıları mağazaya təşviq etmək məqsədi ilə olur. Ərzaq mağazalarında olan endirim kampaniyalarında fərqli cəhət var ki, endirimdə olmayan məhsulları qoyurlar endirim yazılmış hissəyə və istehlakçı səhvən endirimdə olmayanı götürür, elə bilir ki, qiymət ona aiddir. Təəssüf ki, istehlakçıların aldadılması hələ də davam edir", - deyə ekspert qeyd edib.

Mövzu ilə bağlı iqtisadçı Günay Hüseynova isə bu məsələdə psixoloji təsirlərin üstünlük təşkil etdiyini vurğulayır: "Market və mağazaların bəzilərində real endirim olarkən, bəzilərində endirim adı altında psixoloji oyun təşkil olunur. Lakin təəssüf hissi ilə qeyd etmək istəyərdim ki, həmin "psixoloji oyunların" sayı real endirimlərin sayını üstələyib. İstehlakçılar, çox təəssüf ki, artıq real endirimlərə inanmırlar. Endirim adı altında olan psixoloji oyunlara qaldıqda isə bunu əsasən mağazalar edir. Son istifadə tarixinə



az müddət - bir neçə gün qalmış məhsullar endirim adı altında alıcılara təklif olunur. Və ya alınmayan məhsullar var ki, daşınma xərcləri və s. səbəblərdən dolayı firmaya geri qaytarılmır, endirim adı altında alıcılara təklif olunur. İstehlakçılara tövsiyə olunur ki, bazarı yaxşı araşdırsınlar. Əgər həqiqi endirim adı altında qiymətin yüksəldilib, yenidən cüzi endirim olması halları ilə rastlaşarlarsa, İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə müraciət etsinlər. Sistemdən əvvəlki, mövcud olan qiyməti görmək olur".

***Fatimə Əliyeva***



## FELYETON

# İki əl, bir baş

Hə, indi qızını ərə verərkən cehizinin üstündə diplom da olmadısa, ta bunun nə faydası. Heç elə bil nə əziyyət çəkib banklara kreditə girib o dəbdəbəli toyu eləmisən, nə də yenə banklara kreditə girib o boyda cer-cehizi yığmısan. Asan iş deyil ey, Allah verərsə, iki-üç nəvən olacaq, hələ sən biçarə o kreditləri ödəyib qurtara bilməyəcəksən.

Axı, bax, bu misal haradan ortaya çıxıb ki, bizim də qanımıza işləyib? Misala bax: qonşu qonşuya baxar, canın odlara yaxar. Ay qardaşlar, ay bacılar, niyə baxırsınız? Axı ata-babalarımız bizə başı aşağı olmağı tövsiyə edib gediblər. Sal başını aşağı, qohum-qonşunun yanından keç. Sənə kim deyir ki, başını qaldırıb görəsən ki, qonşu ikimərtəbəli ev tikdirib. Sən də düşəsən sevdaya ki, yox ey, necə, nə təhər edim ki, onun tikdiyi evdən mən də tikim. Məgər mən ondan kəsir oğlanam ki, hasarın o tərəfindən onun evi boylana, mənim evim də hasarın içində itə.

Hə, nə edirik? Axı qonşudan fərqli olaraq nə əlimizdə, nə də ovcumuzda var. Düşürük bank-bank, deyirik görək hansı aşağı faizlə pul verir, götürək başlayaq. Banklar da ki, Allah onlara insaf versin, nə dinləri var, nə də imanları. Faizi eşidəndə neçə ildən bəri alıb, hələ də yeniləyə bilmədiyin papaq da özünü atır yerə. Amma çarə nədir? Nəyin bahasına olursa-olsun, bu pul götürülməli, o ev tikilməlidir. Sonrası həmişəki klassik düşüncəmiz: Allah kərimdir.

Hə, pulu götürdük, başlayırıq evimizi bir mərtəbə də artırmağa. Qonşununku qədər olmasa da, ona yaxın bir şeyə oxşadırıq. Səhəri qonşunun yanından keçəndə isə elə bir havada oluruq ki, gələsən, görəsən.

Bu qonşu da ki, Allah saxlamış, haradan alır, haradan tapır bu pulu, nə bilim axı. Bir təhər ki, dişini-dırnağını sıxıb evi qurtarmışdın ki, bir də görürsən qonşunun qapısının ağzında bir maşın. Ə, bu nədir, ə? "Buna bax, maşınına bax",- deyirsən və için-içini yeyir. Yenə o köhnə papağını qabağına qoyub başlayırsan fikirləşməyə ki, necə edim, bir babatını da mən alım. Amma ala bilmirsən axı. Kreditin var. Çox düşünüb, çox daşınandan sonra deyirsən ki, ə, var, var da. Qoy gedib bu səfər də arvadın adına kredit götürüm. Üz tutursan yenə banklara. Yaxşı, bunu da bir təhər həll edib, alırsan bir maşın, qoyursan qapının ağzına, olursan qonşu ilə bərabər. Amma necə bərabər? Bax bunu deyə bilmirəm.

Günlər keçir, arvad deyir ki, ay kişi axşam gələndə konfetdən-zaddan bir kilo al, gedək qonşuya, deyir qızı məktəbə girib. Ay Allah, bax, müsibət bu dəfə başlayır, özü də necə başlayır. Ta kişi kiriyərmi, susarmı məgər?

-Hə, xalxın da uşaqları var, mənim də. Bax ey, gör camaatın balasının səsi haralardan gəlir. Bizimkilərə də oxu deyəndə, canları çıxır. İndi bu gündən baxassız gününüzə, yaxşı.

Nə isə, axşam da gedirlər qonşuya gözaydınlığı verirlər. Qayıdırlar evə. Bu dəfə də düşürlər diplom sevdasına. İlişirlər uşaqların canına. Başlayırlar onları hazırlığa qoymağa. Nədi, nədi ki, bunlar bal toplayıb bir məktəbə girsinlər. Uşaq deyir, ay dədə, vallah mən riyaziyyatdan heç nə anlamıram. Ata deyir ki, qələt edirsin, öyrənməlisən. Qız deyir ki, ay ana, vallah, nə qədər edirəm kimyadan, fizikadan bir şey başa düşmürəm. Ana deyir ki, heç nə olmaz, bəs müəllim nədən yanadır, qoyuruq hazırlığa ki, öyrənəsən də.

Hə, bax, belə-belə bir də baxdıq ki, dəbdəbəli toy, cehiz kimi, diplom da dəbə düşdü. Camaat başladı bir-birinin bəhsinə uşağını oxutmağa. Uşaq oxudu-oxumadı, gedir hazırlığa, valideyn də başlayır yeməyindən, əynindən-başından kəsib hazırlıq pulunu ödəməyə. Vaxt gəlir, baxırlar ki, vay, bu uşaq üç-dörd ildir hazırlığa gedib, topladığı bala bax. Bu dəfə də valideyn deyir, əşi, ta nə edim ey, düşür düşsün də ödənişliyə, çarə nədir, bir təhər oxuduram. Yenə də başlayır bank-bank gəzməyə. Hara gedir, banklar od tutub yanır. "Çarə yoxdur ey, qonşunun oğlu keçən il girib məktəbə, qızı da bu il. Sinifdə universitetə girməyən qalmayıb. Mənimki niyə geridə qalmalıdır?",- deyib, götürür pulu aparıb ödəyir məktəbə. Uşaq da olur tələbə. Elə ki, məktəblərin açılmasına az bir zaman qalır, yenə valideynin kürkünə birə düşür. Axı dərd bir deyil, iki deyil? Bunun əyni-başı var, qalmağa yeri var, yeməyi-içməyi var, dəftər-qələmi var, başqa məsələləri var...

Gün o gün olur ki, uşaq universiteti sürünə-sürünə, bir təhər bitirir. Elə bu ərəfə də ata krediti bitirir. Zalım bu qonşu da dayanmaq bilmir də. Bir də eşidirlər ki, uşağı düzəltdi filan yerə işə. Vəssalam, dərd başladı. Arvad başlayır danışmağa, ta kirimək bilmir: bu uşağa bir iş tapa bilmədik. Balam gül kimi məktəb bitirib oturub evdə. Xalxların da uşağı odur ey, gör, haralarda işləyir.

Yaxşı, bunu eşidən ata nə eləsin? Uşaq da ki, nə işə qəbul imtahanı verəndi, nə də oturub təzədən qabağına kitab-dəftər tökəndi. Olan-qalan hövsələsini də 4 il universitet əlindən alıb.

Ata düşünür ki, yox ey, yenə bir banka baş çəkim, görüm faizlər indi necədir, pul götürüm bu uşağa bir iş tapım. Düşür bank-bank yenə də gəzir, axır biri ilə razılaşıb, pul götürür. Sonra da fikirləşir ki, İlahi-pərvərdigara, mən bu pulu indi kimə etibar edib verim ki, işimi görsün, birdən bir nadürüstə rast gələrəm, pulum batar, it də gedər, ip də. Artıq bu, qalır Allaha, qarşına ya dürüst biri çıxa, pulunu alıb işini görə, ya da nadürüstü çıxa, pulunu alıb aradan itə.

***

Hə, kişi başlayır dərd çəkməyə, fikir eləməyə. Arvad da o tərəfdən qayıdır ki, ay kişi, axı eviydi də oturmuşduq, nəyimizə lazımdı bu ikimərtəbəli ev? Heç yuxarı qalxan da yoxdur.

Kişi də başlayır çığırmağa: az, dünənədək sən deyildin, gündə qonşunun evinə, bax, deyən? İdi nə artistlik edirsən?

Sonra arvad görür ki, fikir bu kişini yıxacaq, kişi də kreditləri arvadın üstünə yıxıb gedəcək, düşür qorxuya, başlayır danışmağa. Axı bu maşın nəyimizə lazım idi? Birtəhər ötüşürdük də.

Bu dəfə də kişini cin vurur:- Ay Allah, amansan, heç xəbərin yoxdu ki? Gündə-gündə başımı xarab edən sən deyildin ki, xalxın arvadı maşınlarda gəzir, mən də bazardan qollarımda sizə yemək daşıyıram?

Bir gün də arvad görür ki, yox ey, ta bu kreditlərin əlindən evdə bişirməyə də bir şey tapmır. Başlayır yenə deyinməyə:- Axı uşaqdı da, dedi ki, ata məni qoy dərzilik öyrənim, oğlan da dedi ki, ay ata, elm mənlik deyil, qonşuluqdakı Həsən kişi yaxşı maşın ustasıdır. Qoy məni onun yanına, gedim öyrənim. Dedin ki, yox ey, gərək diplomunuz olsun. İndi nə zəmanədir ki, qonum-qonşunun uşağı təhsil ala, siz də sənət öyrənəsiniz.

Bu dəfə kişi dəli olmasın, bəs nə etsin. O tərəfdən qayıdır ki, arvad, səsini kəs. Məni qızışdırıb ortaya salan sən deyildin? İndi başlamısan ayrı söz danışmağa. Sənə baş qoşan yerdə başım batardı, deyib, iki əli ilə başına bir qapaz endirir.

***

Amma nə faydası? Banklara kredit kredit üstündədir, ay da ki, elə başlamağı bilir, bir də görürsən ki, kreditin vaxtı çatıb. Zənglər dalbadala düzülüb. İndi gəl, başını itirmə görüm, necə itirmirsən. Əlində-ovcunda nə var, ver banka, otur, əlini aç Allaha, ruzi istə. Vallah, həqiqətən də bizimki Allaha qalıb. Allah köməyimiz olsun.

***Mətanət Məmmədova***

# Bədənimizi susduran maddələr: antiperspirantlar sağlamlığa necə təsir edir?

**Antiperspirantlar (yəni qoltuqaltı tər əleyhinə sprey və roll) - bədəndə tər ifrazını müvəqqəti olaraq azaldan və pis qoxunun qarşısını alan kosmetik vasitələrdir. Onlar daha çox qoltuqaltı nahiyədə istifadə olunur və deodorantlarla qarışdırılmamalıdır. Deodorantlar qoxunu aradan qaldırır, antiperspirantlar isə tərin özünü azaldır. SİA mövzu ilə bağlı araşdırma aparıb.**

## Antiperspirant nədir və necə istifadə olunur?

Antiperspirantların əsas tərkibində alüminium əsaslı duzlar (məsələn, aluminium chlorohydrate və ya aluminium zirconium) olur. Bu maddələr tər vəzilərini müvəqqəti olaraq daraldır və beləliklə tər axını azalır.

## Antiperspirantların mümkün zərərləri



Ən çox müzakirə olunan zərərli təsirlər bunlardır:

### Dəri qıcıqlanması və allergiya

Həssas dərisi olan şəxslərdə qaşınma, qızartı və ya yanma hissi yarada bilər. Alkoqollu tərkiblər dərini quru və qıcıqlanmış hala sala bilər.

### Tər vəzilərinin təbii funksiyasının pozulması

Antiperspirantlar tər vəzilərini bloklayaraq bədənin temperatur tənzimləmə və toksin atma funksiyasını müvəqqəti məhdudlaşdırır. Bu vəziyyət uzunmüddətli istifadədə bəzi mütəxəssislər tərəfindən narahatedici sayılır.

### Süd vəzi xərçəngi ilə əlaqə iddiaları

Bəzi araşdırmalarda alüminium duzlarının süd vəzisi toxumalarında tapılması qeyd olunmuşdur. Lakin hazırda elmi cəhətdən sübut olunmuş konkret əlaqə yoxdur. ABŞ Xərçəng Cəmiyyəti və digər qurumlar bu riski təsdiqləmir, amma tədqiqatlar davam edir.

### Hormonal pozuntular (ehtimal)

Bəzi tərkib hissələri (məsələn, parabenlər) hormonal sistemə təsir edə biləcək endokrin pozucu maddələr kimi qiymətləndirilir. Çox zaman bu maddələr artıq antiperspirant tərkibindən çıxarılıb, amma etiketlər yoxlanmalıdır.



## Təhlükəsiz istifadə üçün tövsiyələr

- Etiketləri oxuyun: Paraben və alüminium tərkibli olmayan məhsullara üstünlük verin.
- Dəriniz qıcıqlanarsa, istifadəni dayandırın.
- Gecə tətbiq edin: Antiperspirantlar gecə dəriyə daha yaxşı təsir edir, çünki tər ifrazı azalır.
- Alternativlər: Təbii tərkibli deodorantlar və ya çörək sodası, mağnezium əsaslı məhsullar alternativ ola bilər.

Antiperspirantlar gündəlik gigiyena üçün geniş istifadə olunur və əksər insanlar üçün təhlükəsizdir. Lakin uzunmüddətli və daimi istifadədə bəzi risklər mümkündür. Ən yaxşı yanaşma fərdi dərinizə və bədən reaksiyanıza əsaslanaraq təhlükəsiz, dermatoloji testlərdən keçmiş məhsulları seçməkdir. Təbii üsullar həm sağlamlıq baxımından daha təhlükəsiz sayılır, həm də dərinin qıcıqlandırmadan uzunmüddətli təsir göstərə bilər. Aşağıda ən çox istifadə olunan və effektiv sayılan təbii alternativlər yer alır:



## Qoltuqaltı tər və qoxusuna qarşı təbii üsullar

*Çörək sodası (qida sodası)*

**- Təsiri:** Antibakterial və quruducu xüsusiyyətə malikdir. Pis qoxu yaradan bakteriyaları məhv edir.

**- İstifadəsi:** Az miqdarda çörək sodasını nəm qoltuqaltına çəkin. İstəyə görə kokos yağı ilə qarışdırıla bilər.

**Qeyd:** Çox istifadə olunarsa dərini qıcıqlandıra bilər. Həssas dərilərdə diqqətli olun.

### Kokos yağı

**- Təsiri:** Antibakterial və nəmləndirici xüsusiyyətə malikdir.

**- İstifadəsi:** Birbaşa qoltuqaltına az miqdarda çəkilir. Tər qoxusunun qarşısını alır və dərini yumşaldır.

**- Qarışıq kimi:** Çörək sodası + kokos yağı + qarğıdalı nişastası qarışdırılaraq evdə təbii "deodorant" hazırlana bilər.

### Alma sirkəsi



**- Təsiri:** Tər vəzilərini təmizləyir və qoxu yaradan bakteriyaları öldürür.

**- İstifadəsi:** Suyla qarışdırılıb pambıqla qoltuqaltına çəkilir.

**Qeyd:** Dərini quruda bilər, istifadədən sonra nəmləndirici çəkmək tövsiyə olunur.

### Limon

**- Təsiri:** Turşuluğu sayəsində bakteriyaları məhv edir və qoxunu azaldır.

**- İstifadəsi:** Limon dilimi birbaşa qoltuqaltına sürtülə bilər.

**- Qeyd:** Təzə təraş olunmuş dəridə yanma hissi yarada bilər.

### Mağnezium hidroksid (Milk of Magnesia)

**- Təsiri:** Antibakterialdır, tər ifrazını azalda bilir.

**- İstifadəsi:** Az miqdarda qoltuqaltına sürtülür. Təbii dezodorant kimi istifadə olunur.

**- Qeyd:** Dərini qurutmur, həssas dərilər üçün uyğundur.

### Ətirli bitkilərdən istifadə

- Lavanda yağı, çay ağacı yağı, evkalipt yağı kimi efir yağları həm antibakterial, həm də xoş qoxuludur.

**- İstifadəsi:** Daşıyıcı yağlarla (məsələn, zeytun, badam və ya kokos yağı) qarışdırılıb tətbiq olunur.

### Təbii üsullarla bağlı tövsiyələr:

- Tər və pis qoxunun əsas səbəbi bakteriyalardır, ona görə antibakterial təsirə malik vasitələr seçilməlidir.
- Təbii vasitələrin dəridə test edilməsi tövsiyə olunur (məsələn, qolun kiçik bir hissəsində sınamaq).
- Hər hansı allergik reaksiya və ya qızartı yaranarsa, istifadə dayandırılmalıdır.

Antiperspirantın tarixi insanlığın təmizlik və bədən qoxusunu azaltmaq cəhdləri ilə paralel şəkildə inkişaf edib. Bu məhsulların yaranma səbəbi bədənin təbii tər ifrazını və qoxusunu azaltmaq idi. Aşağıda ilk antiperspirantların yaranması və inkişaf mərhələləri elmi üslubda xronoloji şəkildə təqdim olunur:

## Antiperspirantın tarixi - elmi baxış

*Qədim dövrlərdə tər və qoxuya qarşı mübarizə*

Misirlilər, yunanlar və romalılar tərləmə və bədən qoxusunu azaltmaq üçün təbii vasitələrdən - məsələn, ətirli yağlardan, gül suyu və gül yağından istifadə edirdilər. Alum (kalium alum) kimi mineral duzlar da qədimdə tər və qoxuya qarşı tətbiq olunurdu. Bu maddə təri bloklamasa da bakteriyaların çoxalmasının qarşısını alırdı.

### Modern antiperspirantın yaranması - 20-ci əsrin əvvəlləri

*1903-cü il - "Everdry"*

ABŞ-da ilk kommersiya məqsədli antiperspirant "Everdry" adı ilə satışa çıxdı. Tərkibində alüminium xlorid var idi - bu maddə tər vəzilərini daraldaraq təri azaltmağa xidmət edirdi. Lakin məhsulun tərkibi dərini tez-tez qıcıqlandırdığı üçün onun istifadəsi məhdud idi.

1910-1930-cu illər - Dezodorant və antiperspirant fərqləndi

- Dezodorantlar bakteriyaları öldürməklə qoxunun qarşısını alırdı, antiperspirantlar isə təri bloklayırdı.
- Bu dövrdə "Odorono" adlı məhsul məşhurlaşdı. Həm reklam kampaniyaları, həm də tər qoxusunun sosial narahatlıq yaratması ilə bağlı narativlər geniş yayıldı.

### 1940-1950-ci illər - Texnologiyanın inkişafı

Alüminium əsaslı antiperspirantlar daha təhlükəsiz və dəriyə uyğun formada hazırlanmağa başlandı. Roll-on və aerosol formalı tətbiqlər bu dövrdə meydana çıxdı.

### 1980-ci illər - Elmi mübahisələr

Alüminium tərkibli antiperspirantların sağlamlığa təsiri (xüsusilə süd vəzi xərçəngi və Alzheymer xəstəliyi ilə əlaqəsi) ilə bağlı ilk elmi suallar ortaya çıxdı. Bu səbəbdən, təbii dezodorantlara maraq artmağa başladı.

### 2000-ci ildən sonra - Təbii alternativlər

Tər ifrazını bloklamayan, ancaq bakteriya və qoxuya qarşı işləyən təbii dezodorantlar geniş yayılmağa başladı. Alüminium, paraben, ftalat və süni ətirlərdən azad məhsulların bazarı genişləndi.

Antiperspirant məhsulların tarixi bir əsrdən çox müddətdə həm texniki, həm də sosial baxımdan dəyişikliklərə uğrayıb. Başlanğıcda sadəcə qoxunu azaltmaq məqsədi ilə istifadə olunan bu vasitələr, zamanla tər bezlərinin fəaliyyətini tənzimləyən, eyni zamanda kosmetik və gigiyenik funksiyaları birləşdirən kompleks məhsullara çevrilmişdir.

*Ayşən Vəli*

ARAŞDIRMA

# Etibarlı enerji təchizatçısı - Azərbaycan!

**Əlverişli geosiyasi məkanda yerləşən Azərbaycan dünyanın enerji xəritəsini yeniləməklə əməkdaşlıqda qarşılıqlı etimad prinsiplərinə, şaxələndirmə siyasətinə də sadiqdir**



Bu ilin iyun ayında keçirilən Bakı Enerji Həftəsində qeyd olunduğu kimi, getdikcə daha ciddi risklər yaradan elektrik enerjisi və təbii qaz qıtlığının aradan qaldırılması, karbohidrogen resurslarından səmərəli istifadə yollarının axtarılması ilə bağlı müzakirələr hələ də aktuallığını qoruyur. Bu baxımdan bərpaolunan enerjidə texniki potensialı quruda 135 , dənizdə 157 giqavat təşkil edən Azərbaycanın enerji resurslarına artan tələbat təbiidir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi 230 meqavatlıq Günəş enerji stansiyasının istifadəyə verilməsi, Səudiyyə Ərəbistanının "Acwa Power"" şirkətinin 240 meqavatlıq külək enerjisi stansiyasının inşası ilə ölkəmizin enerji ehtiyatı daha da artacaq. "2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb" söyləməklə Azərbaycanın ixrac bazarlarında rolunun, Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinə marağın artdığını qeyd edən Prezident İlham Əliyev artıq texniki-əsaslandırma işlərinin bu yaxınlarda sona çatacağını bildirib.

Azərbaycanın "Yaşıl" gündəliyi, Naxçıvan Muxtar Respublikasının, Qarabağ və Şərqi Zəngəzur regionlarının yaşıl enerji zonaları elan edilməsi ölkə iqtisadiyyatının inkişafını, enerji siyasətimizin koordinasiyasını, şaxələndirilməsini sürətləndirir. Azərbaycanın beynəlxalq tərəfdaşları ilə birgə fəaliyyəti nəticəsində bərpaolunan enerji resurslarına transformasiyada və qazıntı yanacağının uzun illər ərzində istifadəsi sayəsində mühüm əhəmiyyətə malik təcrübə özünü doğruldur. Dəfələrlə qeyd olunmuş "Eenerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir" deyimi enerjiyə tələbatın artdığı bu günlərdə daha aktual səslənir. İdxaldan asılı olan ölkələr ən etibarlı və uzunmüddətli tərəfdaşlar axtarır. Ötən illərin təcrübəsi göstərir ki, sözü imzası qədər dəyərli olan Azərbaycan xüsusilə Avropa ölkələri üçün ən etibarlı bazardır. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanuni hüquq qazanıb. Bunun nəticəsidir ki, ölkəmiz bərpaolunan enerji sahəsində növbəti sürətli inkişaf ərəfəsindədir. Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarla bağlı görülən işlər də deyilənlərə əlavə olunsa, 2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsi tamamilə real hədəfdir. Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. 3-5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır. Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi ölkəmizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək. Azərbaycanın bərpaolunan enerji potensialı, aparılmış ilkin hesablamalara görə, yalnız texniki baxımdan yox, iqtisadi və institusional baxımdan da cəlbedicidir. Beynəlxalq Maliyyə Korporasiyası (IFC), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Səudiyyə Ərəbistanının " ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri ilə əməkdaşlıqlar artıq reallaşır.

III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə media nümayəndələri tərəfindən verilən çoxsaylı sualları obyektiv cavablandıraraq ölkəmizin təşəbbüsü ilə regionda həyata keçirilən nəhəng layihələrə, müxtəlif qlobal çağırışlara, bölgədə və dünyada baş verən hadisələrə təhlili yanaşma tərzi ilə fərqlənən Azərbaycanın enerji diplomatiyasının uğurlarından bəhs edən Prezident İlham Əliyev perspektivlər barədəki inamlı açıqlamaları ilə diqqəti cəlb etdi.

Dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycanda enerji keçidi dövründə bərpaolunan enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirilir. Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonası" kimi inkişafı istiqamətində zəruri addımlar atılır. "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizi" layihəsi böyük perspektiv vəd edir. Regional və qlobal əməkdaşlıqda etibarlı tərəfdaş kimi böyük nüfuz qazanan, dünyanın enerji siyasətinin yenlənməsində xüsusi rolu olan, bölgənin gələcək inkişafı üçün böyük imkanlara malik Azərbaycan enerji, nəqliyyat və kommunikasiya dəhlizləri vasitəsilə Avropa, Asiya və Mərkəzi Asiya ölkələrini birləşdirən körpü rolunu inamla davam etdirir. Bu təşəbbüslər regional iqtisadi tərəqqiyə təkan verməklə yanaşı, Azərbaycanın qlobal əməkdaşlıqda vacib aktor kimi mövqelərini möhkəmləndirir.

Şuşa Forumunda qeyd olunduğu kimi, 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında ölkəmizdə ən azı 6 giqavatlıq yaşıl enerji, o cümlədən Günəş, külək və su elektrik enerjisi istehsal olunacaq. "Su elektrik enerjisi Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Biz ümumi 280 meqavat gücündə 30 kiçik su elektrik stansiyasını artıq istismara vermişik. Beləliklə, yaşıl gündəliyimiz həqiqətən çox genişdir. Eyni zamanda, mənim mesajım, ev sahibi olan Azərbaycanın mesajı ondan ibarət idi ki, biz həmin məsələyə realist və praqmatik yanaşmalıyıq. Hamımız anlayırıq ki, biz planeti qorumalıyıq. Lakin ətraf mühit böhranına ən çox rəvac verənlər, yəqin ki, bu yükü öz üzərinə götürməlidirlər" sözləri ilə ölkəmizin iqlim dəyişmələrinin yaratdığı problemlərin həllində də fəal iştirak edəcəyini bildirən Prezident İlham Əliyevin vurğuladığı kimi, faydalı qazıntıları diqqətdən kənarda saxlamaq olmaz: "Çünki yaxın gələcəkdə onlarsız dünya yaşaya bilməz, iqtisadiyyat işləyə bilməz, təyyarələr uça bilməz və hər bir şey dayanar. Beləliklə, biz reallığın bu tərəfini də görməliyik."

Bəlli olduğu kimi, ölkəmizdə "Yaşıl Keçid Proqramı" həyata keçirilir. Lakin neft və qaz olmadan gələcək inkişafı da təsəvvür etmək yanlışdır. "Ölkəmizdə COP29-da mühüm nailiyyətlərdən biri ondan ibarətdir ki, biz elə konstruktiv mühit yaratdıq və şəxsi töhfə verdik ki, karbon bazarlarının fəaliyyəti ilə bağlı 6-cı maddə üzərində razılıq əldə olunsun. Bu məsələ ən azı son 10 il ərzində müzakirədə qalmışdır. Beləliklə, o, COP29-un ən mühüm və tutarlı nəticəsinə çevrildi" söyləyən Prezident İlham Əliyev iqlim dəyişmələri məsələlərinin həlli ilə bağlı vəsaitlərin COP29-da nəzərdə tutulmuş 100 milyard ABŞ dollarından 300 milyard ABŞ dollarına qədər artırılması ilə bağlı əldə olunan razılığı müsbət nəticə adlandırdı. Göründüyü kimi, Azərbaycanın "Yaşıl" gündəliyinin , enerji sahəsində şaxələndirmə siyasətinin, müxtəlif tərəflər arasında anlaşmaq səylərinin BMT və bir çox beynəlxalq tərəfdaşlar tərəfindən yüksək dəyərləndirilməsi ölkələr arasındakı mühitini möhkəmləndirir.

Hazırda beynəlxalq səviyyədə yaşıl enerji layihələrinə artan diqqət təkcə Azərbaycanda deyil, Günəş və külək elektrik enerjisi stansiyaları yaradılan Mərkəzi Asiya ölkələrində də hiss olunur. Ötən ilin noyabrında Bakıda COP29 çərçivəsində Özbəkistan, Qazaxıstan və Azərbaycan prezidentləri arasında yaşıl enerji ilə bağlı Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi əsasında sənədin imzalanması, ölkələrarası infrastrukturun birləşməsi ilə bağlı razılığın əldə olunması Qlobal Cənubun enerji siyasətində mühüm addım hesab olunur. Əvvəllər Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan arasında da buna bənzər sənədin imzalanmasını, Qara dənizin dibi ilə yaşıl enerji kabelinin çəkilisini nəzərə almaqla söyləmək olar ki, bu cür mühüm layihələr təkcə Cənubi Qafqazı deyil, geniş coğrafiyanı əhatə edir. Bütün təşəbbüslərin mərkəz nöqtəsi Azərbaycandır. Bu coğrafiya isə dəyişilməzdir. Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanmış sənədlərdən də aydın olur ki, Azərbaycan qlobal layihələrin ayrılmaz hissəsi , əsas qovşağıdır. Artıq Cənub Qaz Dəhlizi maksimal həcmdə fəaliyyət göstərir. Azərbaycanın təşəbbüsü ilə yeni interkonnektorlardan istifadə olunur. Əsas boru kəməri tam həcmdə doludur. Onu genişləndirmək üçün isə əlavə maliyyə vəsaitinə ehtiyac var. Ona görə Avropa institutları bu reallığı və enerjə ehtiyacı nəzərə almalı və siyasətlərində dəyişiklik etməlidirlər. Çünki hələ də davam edən Rusiya-Ukrayna müharibəsinin yaratdığı fəsadlar da göstərir ki, Avropanın Azərbaycanın təbii qazına, yaşıl enerjisinə həmişəkindən daha çox ehtiyacı var. Digər səbəb isə geosiyasi baxımdan əlverişli ərazidə yerləşən, 12 ölkəyə qaz ixrac edən ölkəmizin Avropa və Asiyanı əhatə edəcək meqalayihələrin icrasında böyük təcrübəyə malik olmasıdır. Ölkəmizin perspektiv üçün enerji siyasəti 2030-cu ilə qədər bu gün 25 milyard kubmetr olan qaz hasilatını daha 8 milyard kubmetr artırmaqla 33 milyard kubmetrə çatdırmaqdır. " Əlavə 8 milyard kubmetr üçün bazarlar müəyyən edilir. Biz Avropa İttifaqının üzvü olan bir neçə ölkədən təkliflər almışıq. O ölkələr ki, bəziləri artıq bizim qazımızı alır, digərləri isə hələ də Azərbaycan qazını almır. Biz bu təklifləri dəyərləndiririk. Bazara çıxış baxımından da biz bu məsələləri kommersiya prinsipləri əsasında dəyərləndiririk" sözləri ilə ölkəmizin enerji ehtiyatlarının tükənməzliyini vurğualyan Prezident İlham Əliyev bir məsələni də diqqətə çatdırır ki, Azərbaycan qarşılıqlı əməkdaşlıq prinsiplərinə etiramla yanaşmaqla, etibarlı tərəfdaşlığa, verilən sözə sadiqliyə da dəyər verən ölkədir.

***Xuraman İsmayılqızı***

# Ermənizm dünya üçün təhlükə mənbəyidir



Dünya tarixinin ən qorxulu və amansız terrorçu milləti ermənilər hesab olunur. Çünki bu toplumun yaşından, mövqeyindən asılı olmayraq hər bir üzvü terrorçu ruhda tərbiyə olunur və böyür. Bu baxımdan ermənilər dünya millətləri arasında ən vəhşi, amansız toplum hesab olunur. Onlar terrorçu olaraq daha peşəkardırlar. Yalnız ermənidir ki, qonşuluğunda yaşayan, həm də o qonşu xalqın ki, zamanında zorən onun ərazisində məskunlaşdırılıb, lakin özlərinə yer edincə Azərbaycan xalqına qarşı dəhşətli terror aktları ilə amansız qətliamlar törədiblər. Həyata keçirilən terror əməlləri nəticəsində yalnız son iki yüz ildə iki milyondan çox azərbaycanlı öldürülüb, minlərlə şəhər, kənd və qəsəbələr dağıdılıb, tarixin özü qədər yaşı olan memarlıq nümunələri, abidələr yer üzündən silinib. Təkcə 30 illik işğal zamanı erməni vəhşi toplumu tərəfindən Azərbaycan xalqına məxsus on minlərlə abidə, memarlıq nümunəsi, yaşayış binaları dağıdılıb. Ermənilərin törətdikləri vandal əməllərə bəzi aparıcı dövlətlərin, beynəlxalq təşkilatların susqunluq nümayiş etdirməsi ikili standartların nümunəsi idi. Bu, həm də onu təsdiq edir ki, ermənilərin işğal etdikləri Azərbaycan ərazilərində törətdikləri vandal əməllərdə bəzi dövlətlərin birbaşa və dolayısı ilə əlləri var. Hətta araşdırmalarla sübut edilir ki, Qarabağdan oğurlanan, talan edilən Azərbaycanın mədəni irsinin nümunələri Fransaya, Hindistana, Yunanıstana, ABŞ-a və digər ölkələrə daşınıb. Təbii ki, belə əməl terrorçularla əməkdaşlıq, işbirliyi deməkdir. Dünya həqiqətən də ədalətli, hüququn aliliyinə hörmət edən dünya olsaydı, terrorçu ermənilərlə əməkdaşlıq edib Azərbaycanın mədəniyyət nümunələrini oğurlayanlar mühakimə edilə və layiq olduqları cəzanı alarlar.

## Dünya ikili standartlardan ibarətdir

Ermənilər işğal etdikləri ərazilərdəki bütün mədəni irsimizi məhv ediblər, pula keçən, zövqlərinə uyğun olanları isə Ermənistana aparıblar. Sonradan isə müxtəlif yollarla ABŞ-a, Hindistana, Fransaya, Yunanıstana, Kanadaya, Livana və digər ölklərdəki dəstəkçilərinə pul qarşılığı olaraq satıblar. Erməni vəhşi toplumu Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri, ümumilikdə 67 məsciddən 65-ni tamamilə məhv edib, digər 2-ni isə müxtəlif iyrənc məqsədlər üçün istifadə edib. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur.

## Ermənistan terrorçularının təcavüzü nəticəsində Şuşa viran qoyulmuşdu

Dünyanın ən ecazkar, tarixi şəhərlərindən olan Şuşa ermənilər tərəfindən daha çox talançılığa, qarətlərə məruz qalıb. Ermənilər tərəfindən Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Qız məktəbi, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir. Bu vəhşilik, vandalizm ancaq erməni terrorçularına xas xüsusiyyətdir. Digər millətlər, hansısa toplumlar tərəfindən belə bəşəri cinayətlərin törədilə biləcəyi təsəvvür edilmir. Ulu Öndərimiz Heydər Əliyev demişdir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

## Şuşa Qarabağımızın incisidir

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Bu dövrdə şəhərdə ocaqlı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Hələ XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. Mənbələrdə göstərildiyi kimi, hələ XIX əsrin ortalarından başlayaraq Şuşanın mədəni həyatında bir canlanma baş verib. Azərbaycan dramaturgiyasının banisi M.F.Axundov öz komediyalarını geniş şəkildə yaymaq məqsədi ilə 1852-ci ildə teatr tamaşalarının intişar tapdığı Şuşa qalasına gələrək, arzusunu reallaşdırıb. V.Şekspirin "Otello"su Azərbaycanda ilk dəfə 1893-cü ildə şuşalı müəllim, dramaturq və jurnalist Haşım bəy Vəzirov tərəfindən tərcümə edilərək səhnələşdirilib. Daha sonra C.Məmmədquluzadənin "Ölülər" tragi-komediyası ilk dəfə 1916-cı ildə Xurşudbanu Natəvanın qızı Xanbikənin evində yerləşən məktəbdə tamaşaya qoyulmuşdu. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur. İşğal nəticəsində bütün sivil dünyanın böyük həsrət, bəzən isə yanğı ilə baxdığı sənət məbədi olan Şuşa və Şuşanın mədəniyyət ocaqları erməni vandalları tərəfindən dağıdıldı, viran edildi. Lakin Şuşanı xəritədən silməyi, ən azı özlərinki edə bilmədilər. Çünki, Şuşanın qalaları, oradakı müqəddəs ruhlar imkan vermədi. Müqavimət göstərilər, o zamana qədər ki, 8 noyabr 2020-ci il də Azərbaycan əsgəri Şuşaya daxil olub, erməni vəhşilərini şəhərdən qovdu. Şuşanın azad edilməzsi ilə erməni toplumunun və onların araxasında dayanan qüvvələrin belini qırmış olduq. Bundan sonar erməni terror maşını məhv olunduğu nümayiş etdirildi. Nəticədə Ermənistan diz çöküb, ağ bayraq qaldırmağa məcbur oldu. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Qarabağın heç bir xüsusi statusu olmayacaq. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Noyabrın 10-da şanlı qələbəmizin təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması müjdəsini xalqa çatdırarkən Prezident İlham Əliyev demişdir: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü topарladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi".

## Qərbi Azərbaycanda xalqımıza məxsus minlərlə abidə, memarlıq nümunəsi dağıdılıb

Erməni vəhşiliyi yalnız Qarabağın və ətraf rayonların işğalı zamanı tarixi, memarlıq nümunələrinin dağıdılması, talan edilməsi ilə yekunlaşmır. Bu vəhşi toplum hələ ötən əsrin əvvəllərindən, sonrakı mərhələdə isə 88-cı ilin əvvəllərindən başlayaraq tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda bizlərə məxsus irsi də dağıdıb, yer üzündən silib. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 491 məscid fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə azərbaycanlıların sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Camə məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib. Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Qala da bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, hazır da Urud qalasının yalnız xarabalıqları qalır. Tarixi Azərbaycan şəhərimiz olan İrəvanda bir dənə də olsun memarlıq nümunəsi, abidə, məşçid qalmayıb, hamısını ermənilər dağıdıblar. Söz yox ki, Şuşaya, Xankəndinə, Əsgərana, Xocavəndə və digər işğal olunmuş ərazilərimizə qayıtdığımız kimi bir gün Qərbi Azərbaycan toprpaqlarımıza da qayıdacağıq. Artıq bu istiqamətdə prinsipial və əhəmiyyət daşıyan addımlar atılır, işlər görülür. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev birmənalı olaraq Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikasının quru yolla əlaqələrinin qurulmasına nail olunacağını bəyan edir. Təbii ki, Zəngəzur dəhlizinin açılması Azərbaycanın bölgənin ən qüdrətli dövləti olması ilə yanaşı, həm də siyasi, iqtisadi mərkəzi olduğunu nümayiş etdirəcək.

***İLHAM ƏLİYEV***

# Naxçıvanın paylayıcı elektrik şəbəkəsi yenidən qurulur

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf konsepsiyasının ardıcıl şəkildə həyata keçirilməsi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da davamlı olaraq reallaşıb. Naxçıvan Muxtar Respublikasının inkişafı, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, infrastrukturun qurulması məsələləri Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin diqqət mərkəzində olub və bu gün də belədir. Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı olduğu dövrdə muxtar respublikaya dəfələrlə səfəri Naxçıvanın inkişafına böyük təkan olub. Dövlətimizin başçısı bu səfərlər çərçivəsində 100-ə yaxın təhsil, səhiyyə, idman və mədəniyyət müəssisəsinin, istehsal sahəsinin və hərbi təyinatlı obyektin açılışlarında iştirak edib. Naxçıvanda aparılan abadlıq-quruculuq işləri, müasir infrastrukturun yaradılması, nəqliyyat-kommunikasiya xətlərinin çəkilişi işləri bilavasitə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə həyata keçirilib. Bununla əlaqədar olaraq Azərbaycan Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə müxtəlif illərdə sərəncamlar imzalanıb. Azərbaycan Prezidentinin ”Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpası ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamı




Naxçıvan Muxtar Respublikasında paylayıcı elektrik şəbəkəsinin dayanıqlılığının təmin edilməsi, bu sahədə infrastrukturun daha da yaxşılaşdırılması, istehlakçıların enerji təchizatının səmərəliliyinin və keyfiyyətinin artırılması məqsədi daşıyır. Sərəncama əsasən, ”Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026-2030-cu illər üçün Tədbirlər Planı” təsdiq edilib. Elektrik enerjisi sisteminin, o cümlədən paylayıcı elektrik şəbəkəsinin müasirləşdirilməsi və innovativ texnologiyaların tətbiqi əsasında təkmilləşdirilməsi ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

## ƏHALİNİN FASİLƏSİZ VƏ TƏHLÜKƏSİZ ENERJİYƏ ÇIXIŞI

Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026-2030-cu illər üçün Tədbirlər Planına əsasən 110 və 35 kV-luq yarımstansiyaların yenidən qurulması və elektrik verilişi xətlərinin çəkilməsi nəzərdə tutulur. Belə ki, 110/35/10 kV-luq ”Koroğlu” yarımstansiyasının yenidən qurulması, ”Azərişıq” ASC-nin yeni inzibati binasının və idarəetmə mərkəzinin tikintisi, 35/10 kV-luq ”Nəzərabad” yarımstansiyasının yerinin dəyişdirilərək yenidən qurulması, 110/35/10 kV-luq ”Sədərək” yarımstansiyasının yenidən qurulması, 35/10 kV-luq ”Sədərək” yarımstansiyasının yenidən qurulması, 35/10 kV-luq ”Əbrəqunus” yarımstansiyasının yenidən qurulması, 35/10 kV-luq ”Qarabağlar” yarımstansiyasının yenidən qurulması, 35/10 kV-luq ”Qışlaq” yarımstansiyasının yenidən qurulması və s. Tədbirlər Planında yer alıb.

Elektrik şəbəkələrində qəza hallarının aradan qaldırılması, SCADA (şəbəkələrin real vaxt rejimində avtomatik idarə olunması) sisteminin qurulması və elektrik sayğaclarının dəyişdirilməsi nəzərdə tutulub. Bütün bunlar və digər amillər bu sahədə infrastrukturun daha da yaxşılaşdırılmasına töhfə verəcəkdir.

Son illərdə ölkəmizdə bu sahədə həyata keçirilən ardıcıl islahatlar enerji sisteminin idarə edilməsi və inkişaf fəlsəfəsində keyfiyyət dəyişikliyinə zəmin yaratmış, elektrik enerjisi ilə istehlakçıların daha etibarlı, davamlı, təhlükəsiz və səmərəli təchizatına xidmət etmişdir. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da iqtisadi inkişafın davamlılığının təmin edilməsi ilə bağlı görülən işlər, öz növbəsində, kommunal infrastrukturun, o cümlədən paylayıcı elektrik şəbəkəsinin keyfiyyətinin yüksəldilməsini, əhalinin fasiləsiz və təhlükəsiz enerjiyə çıxışını əsas prioritetlərdən birinə çevirir.

## DAYANIQLI İNKİŞAF TƏMİN OLUNUR

Məlumdur ki, ”Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə ”Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” hazırlanmışdır. Dövlət Proqramı Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilmişdir. Dövlət Proqramı prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir. Dövlət Proqramının əsas hədəf göstəricilərinə əsasən, dayanıqlı inkişaf təmin olunur, məşğulluq imkanları artırılır, əhalinin həyat səviyyəsinin yüksəldilir. Prezident İlham Əliyevin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş ”Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət proqramı”nda dəyişiklik edib. Sərəncama əsasən, Naxçıvanda gömrük sərhəd buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yükötürmə qabiliyyətinin artırılması istiqamətində iş aparılması üzrə əsas icraçıların siyahısına Dövlət Gömrük Komitəsi ilə yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) və ”Azərbaycan Dəmir Yolları” QSC, müxtəlif turizm növlərinin (qış, kənd, eko və s.) inkişaf etdirilməsi və turizm atlasının hazırlanması üzrə digər icraçıların siyahısına Dövlət Turizm Agentliyi ilə yanaşı, Elm və Təhsil Nazirliyi, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi üzrə əsas icraçıların siyahısına muxtar respublikanın Nazirlər Kabineti ilə yanaşı AAYDA daxil edilib.

## YENİ İNKİŞAF MƏRHƏLƏSİ

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsində ölkəmizin qeyri-neft sənayesi də dinamik inkişaf edir, qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələri yaradılır. Hazırda bu istiqamətdə aparılan işlər ölkənin bütün regionlarında uğurla davam etdirilir. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Dövlət proqramlarının icrası istiqamətində görülən işlər nəticəsində ölkənin hər yerində genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib. Cənab İlham Əliyevin vurğuladığı kimi əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik.

Ölkədə regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında görülmüş işlər infrastruktur layihələrinin həyata keçirilməsinə, Naxçıvan Muxtar Respublikasında qazlaşdırmanın tam təmin edilməsinə, enerji təchizatının yaxşılaşdırılmasına, müasir yolların inşasına, sosial infrastruktur obyektlərinin tikintisinə, yeni müəssisələrin yaradılmasına və iş yerlərinin açılmasına səbəb olub. Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, sənayenin davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli Fərmanı ilə Şərur Sənaye Məhəlləsi yaradılıb, investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, iqtisadiyyata sərmayə qoyuluşunun stimullaşdırılması üçün son 5 il ərzində 18 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi sənədi çərçivəsində idxal olunan 77,9 milyon manat dəyərində avadanlığa gömrük və vergi güzəştləri tətbiq edilib. İxracın stimullaşdırılması məqsədilə müxtəlif ölkələrdə keçirilmiş tədbirlərdə yerli sahibkarlıq subyektinin dövlət dəstəyi ilə iştirakı təmin edilib və istehsal olunan məhsullar nümayiş etdirilib.

Ötən dövrdə torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində tutumu 100 milyon kubmetr olan Heydər Əliyev su anbarı istifadəyə verilib. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində 169,8 meqavat gücündə 10 elektrik stansiyası, o cümlədən 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 4,5 meqavat gücündə Heydər Əliyev su anbarı üzərində su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 20 meqavat gücündə ”Biləv” su elektrik stansiyası, Şərur rayonu ərazisində 20,5 meqavat gücündə ”Arpaçay-1” və 1,4 meqavat gücündə ”Arpaçay-2” su elektrik stansiyaları, Babək rayonunun Xalxal kəndi ərazisində 22 meqavat gücündə Naxçıvan günəş elektrik stansiyası, Kəngərli rayonunda 5 meqavat gücündə, Şərur rayonunda 8 meqavat gücündə günəş elektrik stansiyaları, Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası və 0,3 meqavat gücündə Culfa külək elektrik stansiyası istifadəyə verilib. Təbii qazla təchizat tam olaraq başa çatdırılıb, 27 kilometr uzunluğunda Naxçıvan-Şahbuz ortatəzyiqli və 82,2 kilometr uzunluğunda Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərləri tikilib istifadəyə verilib.

Həyata keçirilən bu və digər tədbirlər Naxçıvan Muxtar Respublikasının çoxşaxəli iqtisadiyyatının formalaşdırılması və sosial sahənin inkişafında mühüm rol oynayır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnib.

Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilib.

Muxtar respublika bütün sahələrdə yüksək inkişafa nail olub, burada ərzaq və enerji, eləcə də müdafiə təhlükəsizliyi təmin olunub. Azərbaycan xalqının çoxəsrlik nailiyyətlərini, mədəni irsini özündə yaşadan Naxçıvanda milli və dini dəyərlərə hörmətlə yanaşılır, elm və təhsil inkişaf etdirilir, adət-ənənələr qorunub saxlanılır, qədim yaşayış yerləri, tarixi memarlıq nümunələri bərpa olunur. Göründüyü kimi, Naxçıvan Muxtar Respublikası yeni dövrünü yaşayır. Həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, Muxtar Respublikada Ulu Öndər Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilir. ”İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”, - deyə Ulu Öndər bildirmişdir. Artıq Onun arzuları həqiqətə çevrilib. Bütöv və suveren Azərbaycan, eləcə də Naxçıvan yeni bir dövrünə qədəm qoyub.

***Nəzakət ƏLƏDDİNQIZI***

SON SƏHİFƏ
SƏS
7 avqust
2025-ci il

# Sələmə pul vermək qanunsuzdur, bəs borc müqaviləsi?





## AYDINLIQ GƏTİRİLDİ

“Mövcud qanunvericiliyə əsasən, bank fəaliyyətinə dair lisenziyaların verilməsi və bu sahədə nəzarət funksiyası yalnız Mərkəzi Bankın səlahiyyətlərinə daxildir. Bu, Banklar haqqında Qanunun 6.1-ci maddəsi ilə tənzimlənir. Həmin maddəyə uyğun olaraq, bank fəaliyyəti üçün tələb olunan lisenziya üçüncü şəxslərə verilməsi mümkün olmayan, yalnız dövlət orqanı tərəfindən tənzimlənən bir hüquqdur”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. Turan Abdullazadə sözlərinə belə davam edib: ”Banklar və qeyri-bank kredit təşkilatları, müştərilərlə bağladıqları müqavilələr çərçivəsində faiz dərəcələrini, xidmət haqlarını, komissiya məbləğlərini və digər ödənişləri sərbəst müəyyən etmək hüququna malikdirlər. Bu hüquq onların iqtisadi müstəqilliyinə və bazar mexanizmlərinə əsaslanır.

Lakin bank və ya lisenziyalı kredit təşkilatı statusu olmayan fiziki və ya hüquqi şəxslərin faizlə borc vermək və bu məqsədlə müqavilə bağlamaq səlahiyyəti yoxdur. Əgər bu cür şəxslərlə hər hansı bir müqavilə imzalanmışsa, həmin müqavilə əsasında yalnız əsas borcun qaytarılması qanun çərçivəsində tələb oluna bilər. Bu halda, faiz və ya əlavə cərimə tələbləri hüquqi baxımdan əsassız sayılır.

Qanunvericilikdə və məhkəmə təcrübəsində də bu yanaşma təsdiqini tapmışdır: bank lisenziyası olmayan şəxslər tərəfindən verilmiş borc pullar yalnız əsas məbləğ üzrə geri qaytarıla bilər, əlavə faiz və ya cərimə ödənişləri isə məhkəmələr tərəfindən təmin olunmur. Nəticə etibarilə, bank və qeyri-bank kredit təşkilatları istisna olmaqla, heç bir fiziki və ya hüquqi şəxs digər vətəndaşa faiz hesablayaraq borc vermək hüququna malik deyil. Bu səbəbdən, lisenziyasız şəxslərə faiz və ya cərimə şəklində əlavə ödənişlərin edilməsi hüquqi öhdəlik sayılmır.

İstisna qeydi: Çaşqınlıq yaratmaması üçün bildirmək istərdim ki, videoda qeyd etdiklərim sadə vətəndaşlar arasında borc müqaviləsi ilə bağlı yox, yalnız ”sələmçi”lərin qanunsuz əməlləri ilə bağlıdır. Belə ki, Mülki Məcəllənin 740-cı maddəsinə əsasən, qanunda və ya müqavilədə ayrı qaydada nəzərdə tutulmayıbsa, borcverən borcalandan müqavilədə nəzərdə tutulmuş qaydada və məbləğdə faiz almaq hüququna malikdir. Bu Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa, borcun verilməsinə görə faizin və (və ya) digər haqqın məbləği və ya hesablanma qaydası tərəflərin razılaşması ilə müəyyən edilir.

Yəni iki sadə vətəndaş aralarında borc müqaviləsi bağlayaraq faizlər müəyyən edə bilər. Lakin gəlir əldə etmək məqsədilə MÜNTƏZƏM olaraq, habelə qeyri-məhdud subyektlərə pul vəsaitlərinin borc verilməsi yalnız normativ hüquqi aktlara uyğun olaraq kreditlərin verilməsi fəaliyyətinin həyata keçirilməsi hüququna malik şəxs tərəfindən həyata keçirilə bilər. Yəni, siz sübuta yetirsəniz ki, sizə sələmə pul verən şəxs həqiqətən qanunsuz olaraq sələmçiliklə (faizə pul verməklə) məşğuldur siz faiz və dəbbə pulunu ödəməkdən azad oluna bilərsiniz.

**Ayşən**

## ELAN

Bank ”BTB” Açıq Səhmdar Cəmiyyəti bildirir ki, 04 avqust 2025-ci il tarixində Səhmdarların növbədənkənar ümumi yığıncağında gündəlikdəki məsələ ilə bağlı müzakirələrin aparılması və yekun qərarın qəbul edilməsi məqsədilə iclasın 24 avqust 2025-ci il tarixinə təxirə salınması qərara alınmışdır.

Bu münasibətlə, Bank ”BTB” Açıq Səhmdar Cəmiyyəti Səhmdarların növbədənkənar ümumi yığıncağının 24 avqust 2025-ci il, saat 11:00-da, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 27 ünvanında yerləşən Bankın Baş ofisində keçiriləcəyini bildirir.

Yığıncağın gündəliyinə aşağıdakı məsələ daxildir:

1. Bank ”BTB” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibi haqqında.


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Valideyn övlada, yoxsa övlad ana-ataya borcludur?

### Ekspertdən İZAH



”Valideyn övlada, yoxsa övlad valideynə borcludur? Bu sual uzun illərdir cəmiyyətlərdə müzakirə olunur. Əslində bu münasibət tək tərəfli deyil - hər iki tərəfin bir-birinə qarşı müəyyən mənəvi borcu və məsuliyyəti var”. Bu sözləri SİA-ya açıqlamasında sosial məsələlər üzrə ekspert Fatimə Hacıbəyli deyib.

Fatimə Hacıbəyli sözlərinə belə davam edib: ”Valideyn övladı dünyaya gətirdiyi andan etibarən onun qarşısında məsuliyyət daşıyır: onu qorumaq, böyütmək, tərbiyə etmək, yaxşı bir gələcək qurması üçün şərait yaratmaq valideynin əsas vəzifəsidir. Övlad isə böyüdükcə, ona verilən bu əməyi və sevgini anlayaraq valideyninə hörmətlə, qayğı ilə yanaşmalıdır. Bu, həm insani, həm də mənəvi bir borcdur. Cəmiyyətin sağlam təməllər üzərində formalaşması üçün ailədaxili münasibətlər qarşılıqlı anlayış, sevgi və dəyərlər üzərində qurulmalıdır. Ən doğru yanaşma budur: Valideyn də, övlad da bir-birinə borcludur - biri həyat verir, digəri onu dəyərli edir”.

**Ayşən Vəli**


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000